QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 130 (5361) 25 **iyul** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycan-Rusiya münasibətləri yeni və daha yüksək müstəvidə

*Soçi görüşü iki ölkə arasında bütün sahələr üzrə məhsuldar əməkdaşlıq əlaqələrinin, strateji tərəfdaşlıq münasibətlərinin daha da dərinləşməsinə xidmət etməkdədir*



Səh 2

3

**Azərbaycan milli mətbuatının yaranmasının 142-ci ildönümü qeyd olunub**



6

**Müasir mətbuatımız öz tarixinə əsaslanır, bununla bərabər inkişaf və tərəqqi edir**



16

**Azərbaycan millisi Braziliya ciu-citsusu üzrə beynəlxalq turnirin qalibi olub**



# Azərbaycan-Rusiya münasibətləri yeni və daha yüksək müstəvidə

*Soçi görüşü iki ölkə arasında bütün sahələr üzrə məhsuldar əməkdaşlıq əlaqələrinin, strateji tərəfdaşlıq münasibətlərinin daha da dərinləşməsinə xidmət etməkdədir*



***Bəlli olduğu kimi, iyulun 21-də Rusiya Federasiyasına işgüzar səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev Rusiya prezidenti Vladimir Putinlə Soçidə görüş keçirib. Həmin görüşdə Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətlərin hazırkı vəziyyəti və inkişaf perspektivi, habelə, regional və beynəlxalq məsələlər geniş müzakirə mövzusu olub.***

Azərbaycanın və Rusiyanın dövlət başçıları strateji tərəfdaşlığın daha da dərinləşdirilməsi, inkişaf etdirilməsi istiqamətində görülməsi zəruri olan işlər, yeni yolların müəyyən edilməsi istiqamətində geniş fikir mübadiləsi aparıblar.

## Rusiya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətlərinin inkişafı erməni lobbisini və bəzi beynəlxalq dairələri narahat edir, bu münasibətlərə xələl gətirilməsinə cəhdlər göstərilir

Fikir mübadilələri əsnasında, xüsusilə, vurğulanıb ki, Rusiya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətlərinin inkişafı erməni lobbisi və onun təsiri altında olan bəzi ermənipərəst, anti-Azərbaycan dairələri (o cümlədən, Rusiyada müxtəlif dövlət orqanlarına soxulmuş və səlahiyyət əldə etmiş erməniləri, ermənipərəstləri) və bəzi beynəlxalq dairələri narahat edir, bu münasibətlərə xələl gətirilməsinə cəhdlər göstərilir. Ancaq qarşılıqlı münasibətlərin xarakteri, dərinliyi və inkişaf perspektivi, habelə, dövlət başçıları arasında mövcud olan qarşılıqlı etimad və dostluq faktoru bu cür bənzər cəhdlərin baş tutmayacağını və iflasa uğrayacağını şərtləndirən mühüm amillərdir. Bildirilib ki, ikitərəfli münasibətlərə kənardan müdaxilə cəhdləri bu günə kimi baş tutmamış və qarşıdan gələn dövrdə və heç bir nəticə verməyəcəkdir.

## Mövcud status-kvonun bundan sonra davam edə bilməyəcəyi, xüsusilə vurğulanıb

Söz yox ki, Soçi görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, bunun üçün yolların tapılması məsələsi daha geniş müstəvidə müzakirə olunub, mövcud status-kvonun bundan sonra davam edə bilməyəcəyi, xüsusilə vurğulanıb.

Nəticədə, hər iki dövlət başçısı - İlham Əliyev və Vladimir Putin Rusiya-Azərbaycan dostluq və strateji tərəfdaşlıq əlaqələrinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini bildirməklə yanaşı, bunun üçün zəruri tədbirlərin görüləcəyini də diqqətə çatdırıblar. Beləliklə, görüşün nəticələrini təhlil edərkən, bir daha bilərik ki, Prezident İlham Əliyevin Rusiyaya səfəri və RF-nin dövlət rəhbəri Vladimir Putinlə görüşü iki ölkə arasında bütün sahələr üzrə məhsuldar əməkdaşlıq əlaqələrinin, strateji tərəfdaşlıq münasibətlərinin daha da dərinləşməsinə xidmət etməkdədir.

***Rövşən NURƏDDİNOĞLU***

# Azərbaycan-Macarıstan strateji tərəfdaşlıq əlaqələrinin inkişafında parlament diplomatiyası xüsusi rola malikdir

***Xarici işlər naziri Elmar Məmmədyarov Macarıstana rəsmi səfəri çərçivəsində Macarıstan Milli Assambleyasının sədr müavini Janos Latorcai və Xarici Əlaqələr üzrə Komitəsinin sədri Zsolt Nemeth ilə görüşüb.***

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan və Macarıstan arasında əlaqələrin strateji tərəfdaşlıq xarakteri daşımasından məmnunluq ifadə olunub. Azərbaycan və macar xalqları arasında dostluğun dərin tarixi köklərə malik olduğu vurğulanıb.

Tərəflər ölkələrimiz arasında əlaqələrin inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin mühüm rol oynadığını diqqətə çəkərək bu xüsusda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstana gözlənilən səfərinin ikitərəfli əməkdaşlığın inkişafına ciddi təkan verəcəyinə əminlik ifadə ediblər.



Həmçinin Azərbaycan və Macarıstan arasında strateji tərəfdaşlıq əlaqələrinin inkişafında parlament diplomatiyasının xüsusi rola malik olduğu qeyd edilib və bu məqsədlə parlamentlərarası dostluq qrupları arasında mütəmadi səfər mübadilələri və görüşlərin keçirilməsinin xüsusi əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Azərbaycanın və Macarıstanın beynəlxalq gündəlikdə duran məsələlərə münasibətdə mövqeyinin üst-üstə düşməsi təqdirəlayiq hal kimi qiymətləndirilib. İki ölkə arasında nəqliyyat, enerji, turizm, təhsil, kənd təsərrüfatı, əczaçılıq və digər sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün biznes dairələri arasında əlaqələrin təşviq edilməsinin vacibliyi qeyd olunub.

Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin inkişafı istiqamətində Macarıstanın dost və tərəfdaş dövlət kimi göstərdiyi dəstək təqdir edilib.

Görüş əsnasında nazir Elmar Məmmədyarov Ermənistanın Azərbaycana qarşı təcavüzü və onun ağır nəticələri və münaqişənin həlli istiqamətində aparılan danışıqlar prosesi haqqında həmsöhbətlərə məlumat verib. Nazir Macarıstanın Azərbaycanın ədalətli və haqlı mövqeyini və münaqişənin ölkəmizin ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında həllini dəstəkləməsinin yüksək qiymətləndirildiyini diqqətə çatdırıb.

# Azərbaycan milli mətbuatının yaranmasının 142-ci ildönümü qeyd olunub




***İyulun 22-də Azərbaycan milli mətbuatının yaranmasının 142-ci ildönümü və fərdi jurnalist yazıları müsabiqəsinin qaliblərinin mükafatlandırılması ilə əlaqədar mərasim keçirilib.***

AZƏRTAC xəbər verir ki, tədbir Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli milli mətbuatın yaranmasının 142-ci ildönümünün geniş qeyd olunduğunu bildirib. İyulun 20-də Azərbaycan Prezidentinin iştirakı ilə jurnalistlər üçün tikilən binada 255 jurnalistə mənzillərin verildiyini diqqətə çatdıran V.Səfərli bu humanist addımın ölkə ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılandığını deyib. Qeyd edib ki, bu, dövlətimizin başçısının mətbuata yüksək diqqət və qayğısının göstəricisidir. 2009-cu ildə Azərbaycan Prezidentinin Sərəncamı ilə yaradılan Fond ölkəmizdə mətbuatın inkişafı istiqamətində bir sıra layihələr, yazı müsabiqələri keçirir. Təsadüfi deyil ki, indiyədək çap mediasının maddi-texniki bazasının gücləndirilməsi məqsədilə dövlət büdcəsindən ümumilikdə 31 milyon manatdan çox vəsait ayrılıb.






Milli mətbuatın 142-ci ildönümü münasibətilə keçirilən yazı müsabiqəsinə 147 yazının təqdim olunduğunu vurğulayan V.Səfərli məlumat verib ki, müsabiqədə 69 KİV iştirak edib, ümumilikdə, 19 istiqamətin hər biri üzrə 6 qalib müəyyənləşdirilib. İcraçı direktor müsabiqənin qaliblərini, eləcə də Azərbaycan mətbuatının bütün təmsilçilərini təbrik edib.




Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, professor Əli Həsənov tədbirdə çıxış edərək bildirib ki, builki bayram jurnalistlər üçün ikiqat əlamətdardır. İki gün əvvəl mətbuatın dostu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin jurnalistlərlə görüşünün uzun müddət xatırlanacağını vurğulayan Əli Həsənov deyib ki, dövlətimizin başçısının proqram xarakterli çıxışı həm Azərbaycan Mətbuat Şurasının, həm jurnalistlərin, həm də redaksiyaların, ümumilikdə, Azərbaycan jurnalistikasının gələcək fəaliyyətinin təməl prinsiplərini təşkil edir.

***Ardı Səh. 4***

# Azərbaycan milli mətbuatının yaranmasının 142-ci ildönümü qeyd olunub

Əvvəli Səh. 3

Qeyd olunub ki, dövlətimizin başçısı həmin görüşdə milli jurnalistikamızın inkişafının əsas istiqamətləri, milli maraqların qorunması ilə bağlı dövlətin yürütdüyü siyasətə dəstək verilməsi, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması və digər mühüm məsələlərlə bağlı dəyərli tövsiyələr verib. Azərbaycan mediasındakı bütün sağlam jurnalistlər Prezident İlham Əliyevin bu tövsiyələrini birmənalı şəkildə qəbul edib və onları əsas prinsip kimi öz fəaliyyətlərində nəzərə alırlar.

Milli mətbuatın 142-ci ildönümü ərəfəsində 255 jurnalistin yeni mənzillərlə təmin olunduğunu vurğulayan Əli Həsənov bildirib ki, bu hadisənin sevincini onlardan daha çox bu nəcib təşəbbüsün müəllifi Azərbaycan Prezidenti İlham Əliyev yaşayıb.

Jurnalistlərin mənzillərlə təmin olunması ilə bağlı yaradılan komissiyanın bu istiqamətdə son dərəcə gərgin rejimdə fəaliyyət göstərdiyini qeyd edən Prezidentin köməkçisi cəmiyyətdə komissiyanın işinə, bu nəcib aksiyanın üzərinə kölgə salmağa cəhd edən bəzi qüvvələrin və şəxslərin olmasını təəssüf hissi ilə qeyd edərək deyib: “Əlbəttə, fəal jurnalistlər onların cavablarını verirlər. Əminəm ki, hətta bu işdə passiv olanlar da gec-tez öz haqqını müdafiə etməyin gərəkliliyini dərk edib, o siyahıya təsadüfi olaraq düşmədiklərini həmin insanların diqqətinə çatdıracaqlar. Sizin haqqınızı danmaq istəyən insanlar dövləti, komissiyanı aldatmağa cəhdlər ediblər. Mənzillə təmin olunanlar barəsində haqsız danışanların arasında ev almaq üçün öz mənzilini başqalarının adına keçirənlər, jurnalist stajlarını saxta şəkildə artıranlar, hətta 12-13 yaşlarından peşəkar jurnalist fəaliyyəti ilə məşğul olduqları barədə əmək kitabçasına staj yazdıranlar da var. Bu nəcib aksiyanın üzərinə kölgə salmağa çalışanlar, bax, belə insanlardır”.










Mənzillərin bölgüsü zamanı Azərbaycan jurnalistikasında əməyi olan veteran jurnalistlərin də diqqətə alındığını xatırladan Prezidentin köməkçisi deyib: “Təəssüf ki, bir sıra veteran jurnalistlərə, bu gün fəaliyyət göstərən və ehtiyacı olanlara mənzil ayıra bilmədik. Onlar növbəti binada mənzillə təmin olunacaqlar”.

Azərbaycan mətbuatının yaranmasının 142-ci ildönümünün əlamətdar hadisələrlə müşayiət olunduğunu qeyd edən Əli Həsənov deyib: “Prezident İlham Əliyev jurnalistlər üçün üçüncü binanın təməlini qoydu. Həmin binanın inşasının başa çatdırılması üçün dövlətimizin başçısı maksimum üç il vaxt verdi. Çalışacağıq ki, həmin bina iki ilə hazır olsun. Əgər bu, mümkün olmasa, bina 2020-ci ildə istifadəyə veriləcək”.

Azərbaycanda əsaslı iqtisadi islahatların aparılması, qeyri-neft sektorunun inkişafı, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması, yoxsulluğun, işsizliyin tamamilə aradan qaldırılması istiqamətlərində Prezident İlham Əliyevin rəhbərliyi ilə genişmiqyaslı fəaliyyətin həyata keçirildiyini bildirən Əli Həsənov deyib: “Azərbaycan dövlətinin sosial sahədə nəzərdə tutduğu proqramların, layihələrin heç biri təxirə salınmayıb. Son dövrdə qaçqınların və məcburi köçkünlərin problemlərinin həllində Birinci vitse-prezident xanım Mehriban Əliyeva başda olmaqla ciddi fəaliyyət həyata keçirilir. Ümumiyyətlə, son dövrdə ölkəmizdə həyata keçirilən təşəbbüslər Azərbaycan mediası tərəfindən birmənalı şəkildə müsbət qarşılanır, dəstəklənir. Azərbaycan Prezidentinin siyasətinin təməlində Azərbaycan xalqı dayanır. Azərbaycan dövləti xalqın iradəsinə söykənərək bütün sahələr üzrə uğurlu fəaliyyət həyata keçirir. Əminik ki, bunun nəticəsində xalqımız daim əmin-amanlıq şəraitində yaşayacaq”.

Çıxışlardan sonra fərdi jurnalist yazıları müsabiqəsinin qaliblərinə mükafatlar təqdim edilib.

Tədbirdə, həmçinin müxtəlif KİV-lərin təmsilçilərinə və dövlət qurumlarının mətbuat xidmətlərinin rəhbərlərinə “Bakcell” şirkətinin, eləcə də ölkəmizdə mətbuatın inkişafında və Azərbaycanın təbliğində xidmətlərinə görə bir qrup şəxsə “PaşaBank”ın adından hədiyyələr təqdim olunub.

Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov Azərbaycan mətbuatına göstərdiyi yüksək diqqət və qayğıya, jurnalistlərin fəaliyyətinə verilən qiymətə görə Prezident İlham Əliyevə KİV nümayəndələri adından minnətdarlığını bildirib. Mərasim konsert proqramı ilə davam edib.

# Jurnalistlər onlara göstərilən yüksək diqqət və qayğıya görə Prezidentə minnətdarlıq edirlər



***İyulun 20-də, Milli Mətbuat Günü ərəfəsində Prezident İlham Əliyevin iştirakı ilə jurnalistlər üçün tikilən ikinci yaşayış binası istifadəyə verildi. Dövlətimizin başçısının bu nəcib təşəbbüsü sayəsində daha 255 media işçisi mənzil sahibi oldu. Həmin gün üçüncü binanın da təməli qoyuldu.***

AZƏRTAC xəbər verir ki, bu günlər redaksiyaların kollektivləri, yeni mənzilin sevincini yaşayan media işçiləri Prezidentə çoxsaylı təşəkkür məktublar ünvanlayırlar. Bu məktublarda dövlətimizin başçısına istər mətbuatın inkişafı istiqamətində atdığı davamlı addımlara, istərsə də jurnalistlərə göstərdiyi yüksək diqqət və qayğıya görə minnətdarlıq duyğuları ifadə olunur.

“Səs” qəzetinin baş redaktoru Bəhruz Quliyevin redaksiya kollektivi adından yazdığı məktubda deyilir: “Möhtərəm cənab Prezident, “Səs” qəzetinin kollektivi olaraq, ilk növbədə, Sizi növbəti dəfə “Jurnalistlərin dostu” adına layiq görülməyiniz münasibətilə təbrik edirik. Belə ki, ölkəmizin bütün media təmsilçiləri Sizi özlərinə dost biliblər və bu dostluğun təməli hələ ulu öndər Heydər Əliyev tərəfindən qoyulub.

Ulu Öndər daim mətbuata ata qayğısı göstərərək, KİV-lərin inkişafı üçün mühüm qərarlar və tapşırıqlar verib. Bu gün isə həmin ənənə Sizin rəhbərliyiniz, diqqət və qayğınız nəticəsində tərənnüm olunmaqdadır.

Jurnalistlərə fəxri adların verilməsi, mətbu orqanlara birdəfəlik yardımların ayrılması, ən əsası isə jurnalistlərin mənzil-məişət problemlərinin aradan qaldırılması istiqamətində dünyada analoqu olmayan sərəncamların imzalanması bu gün ölkəmizdə mətbuatın dövlətin diqqət mərkəzində olduğunu bir daha sübut edir. Ənənə şəklini almış bu cür ardıcıl töhfələr, media nümayəndələrinə verilən mənzillər, atılan hər bir addım biz jurnalistlərin böyük sevincinə səbəb olur.

“Səs”çilər də Sizin qayğınızdan fərəh və qürur hissi keçirir, fəaliyyətinizdə uğurlar və yeni-yeni zəfərlər arzulayır, sonsuz minnətdarlığını bildirir”.

Prezidentə digər bir məktub “Trend” Beynəlxalq İnformasiya Agentliyi, “Day.az”, “Milli.az” xəbər portalları və “Azernews” qəzetinin kollektivləri adından ünvanlanıb. Məktubda deyilir: “Möhtərəm cənab Prezident, Sizin zəngin və şərəfli tarixə malik Azərbaycan mətbuatının tərəqqisi istiqamətində ardıcıl gördüyünüz işlər, kütləvi informasiya vasitələrinin inkişafına göstərdiyiniz maddi dəstək, media işçilərinə qayğı və diqqətiniz dünya miqyasında bənzəri olmayan bir təcrübə, örnəkdir. Xüsusilə, jurnalistlərin mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə tərəfinizdən imzalanan Sərəncam əsasında jurnalistlər üçün 255 mənzilli ikinci binanın inşa edilməsi nəinki media işçiləri, eləcə də çoxmilyonlu xalqımız tərəfindən yüksək qarşılanıb. Bizə göstərdiyiniz bu qayğı və etimadı doğrultmaq üçün bundan sonra da Sizin rəhbərliyiniz altında Azərbaycan dövlətçiliyinin inkişafı, Vətənimizin rifahı, haqq sözümüzün dünyaya çatdırılması istiqamətində gördüyümüz işi daim var gücümüzlə davam etdirəcəyik”.

Əməkdar Jurnalist Azər Həsrət Prezident İlham Əliyevin 22 iyul - Milli Mətbuat Günü ərəfəsində 255 jurnalisti mənzillə təmin edərək, onların ailələrinə sevinc bəxş etdiyini vurğulayaraq yazır: “Sizin bu xalqyönümlü humanist siyasətiniz bir daha təsdiq edir ki, hər bir azərbaycanlının Prezidenti olacağınızla bağlı verdiyiniz vəd sadəcə söz deyil. Siz biz jurnalistlərin yaxın dostu, ən çətin anlarımızda himayədarımızsınız. Biz Azərbaycan jurnalistləri istər ölkə içində, istərsə də ölkədən xaricdə olanda həmişə özümüzü yalnız ona görə güvəndə hiss edirik ki, arxamızda məhz Sizin kimi Prezident dayanır. Biz həmişə Sizi özümüzə güvən yeri, dayaq bilmişik və buna görə də heç vaxt yanılmamışıq. Ona görə də, izn verin, jurnalistlər üçün tikdirdiyiniz 2-ci binanın təhvil verilməsi və 3-cü binanın təməlinin atılması münasibətilə Sizə dərin təşəkkürümü ifadə edim. Biz Sizinlə fəxr edirik, qürur duyuruq.

Biz Sizi özümüzə hər zaman ən yaxın dost kimi görürük. Buna görə də Sizin siyasətinizi bundan sonra da tam gücümüzlə dəstəkləməyə davam edəcəyik”.

Sumqayıt şəhərindən Ləman Ağayeva 255 jurnalist kimi, onun da ailəsinə yaşatdığı sevincə görə dövlətimizin başçısına təşəkkür edir: “Cənab Prezident, bizi, sözün həqiqi mənasında, xoşbəxt etdiniz. Dünyanın heç bir ölkəsində, həm də qlobal böhranlar dövründə jurnalistlər bu qədər diqqət və qayğı ilə əhatələnməyib. Həmin sevincdən bizim ailəyə də pay düşdü. Anam Aida Eyvazovanın 35 illik jurnalist fəaliyyətini dəyərləndirdiniz. Ailəmizə yaşatdığınız bu sevincə görə doğmalarım və dostlarım adından Sizə dərin minnətdarlığımı bildirirəm və əminəm ki, o mənzillərdən hər zaman sevinc-şadlıq səsi gələcək. Sizi hər zaman dəstəkləyir və sevirik. Tanrı Sizi qorusun!”

Yeni mənzilin sevincini yaşayanlardan biri də Əkbər Qoşalıdır. O, keçirdiyi hissləri və minnətdarlıq duyğularını belə ifadə edir: “Möhtərəm cənab Prezident, bizə bəxş etdiyiniz bu sevincə görə Sizə ürəkdolusu minnətdaram. Siz yalnız jurnalistlər üçün ev tikdirmirsiniz, Siz ümumən qurucu lidersiniz. Jurnalistlər evində yaşamağın mənəvi dəyəri maddi dəyərindən çox yüksəkdir. Biz Sizin jurnalistlərə qayğınızı, mediamızın inkişafını ölkəmizin ümumi inkişaf strategiyasının üzvi tərkib hissəsi kimi qəbul edirik. Sizin sərəncamlarınız, qəbul etdiyiniz proqramlar, verdiyiniz tapşırıqlar əsasında ayrı-ayrı sənət-peşə sahibləri, müharibə veteranları, şəhid ailələri, qaçqın və məcburi köçkün vətəndaşlarımız, sosial müdafiəyə ehtiyacı olan ailələr, gənclər, idmançılar evlə təmin olunur.

“Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair strateji yol xəritəsi”nin qəbulunu, Yasamal yaşayış kompleksinin tikintisini qeyd etmək yetərlidir ki, Sizin bu məsələyə nə qədər hərtərəfli yanaşdığınız bariz şəkildə görünsün. Beləliklə, paytaxtımızda daha 255 yeni mənzilin işığı yanacaq, neçə-neçə ailə kirayədən, yataqxanadan, hansısa ucqardakı təmirsiz mənzildən, sözün həqiqi mənasında, aydınlığa çıxacaq. Bunun memarı Sizsiniz, cənab Prezident! Bir daha Sizə könül dolusu minnətdarlığımızı yetirir, şərəfli işinizdə uğurlar diləyirəm!”

Prezidentə ünvanlanan məktubların müəllifləri arasında Sumqayıt sakini İndira Şəmsivari də var. O, 255 media işçisinin mənzillə təmin olunması xəbərini eşidəndə və bunu dostları ilə paylaşanda kövrəldiyini yazır. Təmənnasız mənzil alanların sevincinə şərik çıxır, dünyanın qlobal iqtisadi böhranla üzləşdiyi bir vaxtda bu xeyirxah təşəbbüsə görə dövlətimizin başçısına təşəkkürünü bildirir. “Əziz Prezidentimiz, Siz dünyada qüdrətli dövlətlərin öz vətəndaşına edə bilmədiyi xeyirxah işləri xalqınıza edirsiniz. Allah Sizi və sevdiklərinizi qorusun! Qəlbim fəxarətlə doludur. Bilirəm ki, Sizin kimi lideri Tanrı da sevir. Uca Yaradan Sizə yardımçı olsun!” - İndira Şəmsivari ürək sözlərini belə ifadə edir.

# Müasir mətbuatımız öz tarixinə əsaslanır, bununla bərabər inkişaf və tərəqqi edir

## *"SƏS" qəzetinin baş redaktoru Bəhruz Quliyevin yap.org.az-a müsahibəsi*

***- Bəhruz müəllim, Azərbaycan Milli Mətbuatı artıq özünün 142-ci ildönümünü qeyd etdi. Ümumiyyətlə, mətbuat tariximizin keçdiyi yol və fəaliyyəti barədə düşüncə və fikirləriniz bizim üçün də çox maraqlı olardı...***

- İlk növbədə, ölkəmizdə fəaliyyət göstərən bütün media təmsilçilərini Milli Mətbuatımızın yaranmasının 142-ci ildönümü münasibəti ilə ürəkdən təbrik edirəm, fəaliyyətlərində uğurlar və davamlı nailiyyətlər arzulayıram.

Bildiyimiz kimi, 1875-ci il iyulun 22-də böyük maarifçi-publisist, ictimai xadim Həsən bəy Zərdabinin misilsiz səyləri ilə işıq üzü görmüş ilk milli qəzetimiz olan "Əkinçi" adlı nəşri xalqa söz və qələmlə xidmət göstərməyin mükəmməl nümunəsini yaratdı və bununla da milli tariximizə öz töhfəsini vermiş oldu. Bu baxımdan, qeyd etmək istərdim ki, Azərbaycan Milli Mətbuatı bütün dövrlərdə həqiqət carçısı olmuş, cəmiyyəti düşündürən problemləri, dövrün qabaqcıl ideyalarını və mütərəqqi fikirlərini əks etdirmiş, xalqımızın maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində mühüm rol oynayıb. Müasir zamanımızda da sözügedən amil əhəmiyyətli mövqeyini qoruyub-saxlamaqdadır. Lakin hazırkı səviyyəsinə gələnə qədər, əlbəttə ki, mətbuatımız keşməkeşli yollar keçərək bir çox tarixi hadisələrə sinə gərib, çətinliklərdən keçib. Müasir mətbuatımız da məhz öz tarixinə əsaslanır, bununla bərabər inkişaf və tərəqqi edir.

Beləliklə, Azərbaycanda söz azadlığının təmin olunması, plüralizmin inkişafı istiqamətində dövlət öz üzərinə düşən vəzifəni yerinə yetirir. Bu sahədə qanun qəbul olunub, müasir dövrün tələblərinə uyğun olaraq təkmilləşdirilib. Prezident İlham Əliyev mediaya xüsusi diqqətlə yanaşır. Bunun nəticəsidir ki, Azərbaycan mətbuatının inkişafına dəstək məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradılıb, Fond ötən dövr ərzində mediaya dəstək verilməsi sahəsində mühüm işlər görüb.

Mən bir daha Azərbaycan Milli Mətbuatının 142-ci ildönümü münasibəti ilə bütün mətbuat işçilərini, qələm həmkarlarımı səmimi-qəlbdən təbrik edir, peşə fəaliyyətlərində davamlı uğurlar və müvəffəqiyyətlər arzulayıram.

***- Azərbaycan mətbuatının inkişaf yolunu tutmasında Ulu Öndər Heydər Əliyevin rolu danılmazdır. Sizcə, Onun mətbuata diqqət və qayğısı daha müasir və inkişaflı mətbuatın yaranmasına hansı stimulları verib?***



- Çox doğru qeyd etdiniz ki, mətbuatımızın inkişafında Ulu Öndər Heydər Əliyevin xüsusi tarixi töhfələri var. Bu baxımdan, əbəs yerə deyil ki, sözügedən amil Ulu Öndər Heydər Əliyev tərəfindən yüksək qiymətləndirilib. Ümummilli Liderimiz milli mətbuatımızın iş prinsipini və tarixini şərh edərkən bu tarixi kəlamlarını vurğulayıb: "Şərəfli tarixə və zəngin ənənələrə malik milli mətbuatımız Azərbaycan ictimai fikrinin inkişafında, xalqımızın milli-mənəvi təkamülündə mühüm rol oynamışdır. Milli azadlıq hərəkatının daim ön sıralarında getmiş Azərbaycan jurnalistikası cəmiyyət qarşısında duran vəzifələrin müəyyənləşdirilməsi və həlli işinə əhəmiyyətli töhfələr vermişdir".

Onu da qeyd etmək yerinə düşərdi ki, sovet hakimiyyəti illərində dövlətin ideoloji tələbləri söz azadlığına, mətbuatın demokratik prinsiplərlə inkişafına imkan vermirdi. Hələ o zamanlar bu mənələri aşa bilən yeganə güc Heydər Əliyev idi. 1969-cu ildə hakimiyyətə gələn dahi rəhbər mətbuatımızın inkişafına səbəb ola bilən və biləcək bütün baryerləri aradan qaldırdı, həyatımızın digər sahələri ilə yanaşı, mətbuatımız da hərtərəfli inkişaf yoluna qədəm qoydu, vətəndaşların maariflədirilməsində ideoloji vasitəyə çevrildi. Məsələn, hələ sovet hakimiyyəti vaxtlarında rüşvətxorluq və korrupsiya ilə mübarizədə, vəzifəli şəxslərin ifşa edilməsində Heydər Əliyev mətbuatın üzərinə müəyyən tapşırıqlar qoyaraq, bununla ictimai nəzarəti gücləndirməyə müvəffəq olmuşdu. Təsəvvürünüzə gətirin, SSRİnin ən həssas vaxtlarında, Azərbaycanda fəaliyyət göstərən dövlət mətbuatında senzuraların tətbiq edildiyi zamanda belə, demokratik işartılar görünməyə başlamışdı. Bu fakt heç bir başqa ittifaq respublikalarında yox idi.

Ulu Öndərimizin 1993-cü ildə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən zəngin qanunvericilik bazası yaradıldı, mətbuatın maddi-texniki bazasının, iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin fəaliyyəti üçün əlverişli şəraitin təmin edilməsi məqsədilə çoxsaylı tədbirlər həyata keçirildi, mətbuat-dövlət münasibətlərində mütərəqqi ənənələrin əsası qoyuldu, 1998-ci ildə Azərbaycanda ilk dəfə olaraq senzura ləğv edildi. O da əbəs yerə deyil ki, Ulu Öndər Heydər Əliyev bir neçə dəfə Azərbaycan mətbuatının dostu olaraq seçilmişdi. Bu, Onun mediaya, jurnalistlərə verdiyi qiymətinin nəticəsi idi.

1993-cü ildən ötən dövr ərzində ölkəmizdə kütləvi informasiya vasitələrinin fəaliyyəti ilə bağlı 50-yə yaxın qanun, fərman və sərəncamın qəbul olunması milli mətbuatın inkişafına göstərilən diqqətin nəticəsidir. 1999-cu il dekabrın 7-də "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun qəbulu mətbuatın hüquqi bazasının zənginləşdirilməsi işinə əhəmiyyətli töhfə oldu. Qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər sonrakı dövrdə də davam etdirildi, "Məlumat azadlığı haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Ətraf mühitə dair informasiya almaq haqqında" Azərbaycan Respublikasının qanunları qəbul olundu. Hazırnda Azərbaycanda yüzlərlə mətbuat orqanı, informasiya agentliyi, teleradio şirkəti, sürətlə inkişaf edən internet resursları cəmiyyətimizin informasiyaya olan ehtiyacının ödənilməsində əhəmiyyətli rol oynayırlar. Ulu Öndərimiz bununla bağlı növbəti tarixi fikirlərini irəli sürmüşdü: "Hər bir kütləvi informasiya vasitəsi milli dövlət quruculuğu prosesində, vətəndaş cəmiyyətinin qurulmasında, milli və bəşəri dəyərlərin bərqərar edilməsində, ölkənin inkişafını təmin edən islahatların həyata keçirilməsində səmərəli surətdə iştirak etməli, həyatın güzgüsü kimi həqiqət carçısı olmalıdır. İnsanları yüksək ideallar, humanist vətəndaş və demokratik cəmiyyət uğrunda mübarizəyə səsləməli və səfərbər etməlidir". Bütün bunlar dahi şəxsiyyət Heydər Əliyevin uzaqgörən siyasətinin məntiqi nəticəsi idi ki, bu olmasaydı, milli mətbuatımız hazırkı tərəqqisinə nail ola bilməzdi.

***- Bu gün həmin siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycan mətbuatı üçün hansı yeniliklərə və nailiyyətlərə əsaslar yaradıb?***

- Təbii ki, Ümummilli Liderimizin yolunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev kütləvi informasiya vasitələrinin inkişafına ciddi diqqət yetirir. Ölkəmizdə söz, fikir və məlumat azadlığının təmin olunması, tam sərbəst şəraitdə yüzlərlə qəzet və jurnalın nəşri mətbu fəaliyyətin maneəsiz həyata keçirilməsinə yaradılmış şəraitin, mətbuata dövlət qayğısının bariz nümunəsidir. "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nın qəbul edilməsi, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması da dövlət başçısının bu sahədə atdığı uğurlu addımların məntiqi davamıdır. 2005, 2010 və 2015-ci illərdə Azərbaycan Milli Mətbuatının yaranmasının 130, 135 və 140 illik yubileylərinin dövlət səviyyəsində qeyd edilməsi, yubiley münasibətilə Azərbaycan mətbuat işçilərinin təltif edilməsi, habelə kütləvi informasiya vasitələrinə maliyyə yardımının göstərilməsi, bir qrup jurnalistin mənzillə təmin olunması jurnalistlərin əməyinə verilən yüksək qiymətin göstəricisidir. Onu da vurğulamaq yerinə düşərdi ki, mənzil şəraitləri pis olan, yaxud da, ümumiyyətlə mənzilləri olmayan media işçilərinin ən müasir standartlara cavab verən mənzillərlə təmin olunması artıq ənənə şəklini alıb. Şəhərin ən görkəmli yerində müasir binalar bu gün hər kəsə göz oxşayır. Birinci binada 156, ikinci binada isə 255 mənzilin jurnalistlərə verilməsi dünyada analoqu olmayan bir hadisədir. İkinci binanın açılışında və mənzillərin təhvil verilməsi mərasimində cənab Prezidentimiz 3-cü binanın tikiləcəyini, hətta ənənənin növbəti illərdə davamlı xarakter alacağını xüsusilə vurğuladı. Əlbəttə, bu analoqu olmayan addımların atılması ölkə jurnalistlərinə öz əməklərində daha həssas, daha fəal olmalarına zəmin yaradır. O cümlədən, dövlət hər zaman mətbuatın yanında olduğunu vurğulayır. Məhz bu baxımdan, mətbuatımızın 142-ci ildönümündə ölkə başçımız növbəti dəfə Azərbaycan Jurnalistlərinin Dostu nominasiyasına layiq görüldü. Bu münasibətlə mən də redaksiya heyətimiz adından cənab Prezidentimizi ürəkdən təbrik edirəm.

***- Bəhruz müəllim, rəhbəri olduğunuz "SƏS" qəzeti də ölkə mətbuatında özünəməxsus yerini tutmaqla yanaşı, öz uğurlu rolunu oynamaqdadır. Bu qəzetin milli mətbuatımızda qoyduğu tarixi imzası ilə bağlı hansı fikirlərinizi bölüşərdiniz?***

- Bəli, "SƏS" qəzeti müstəqil Azərbaycan mətbuatının ilk qaranquşlarından biridir. "Səs" ictimai-siyasi qəzet kimi 1990-cı ilin noyabrında "Əlincə" Xeyriyyə Cəmiyyətinin orqanı olaraq qeydiyyatdan keçib, 1991-ci il yanvarın 11-dən dərcinə başlanıb. Yəni qəzetin tarixi Azərbaycanın müstəqillik tarixindən bir neçə ay əvvələ təsadüf edir. Qəzet Ulu Öndər Heydər Əliyevin ideyalarının cəmiyyətə çatdırılması kimi müqəddəs missiyanı yerinə yetirib, bu qəzetin ətrafında Ulu Öndəri sevənlər cəmləşib. Bütün zamanlardakı fəaliyyəti dövründə qəzetimiz sağlam ideyanın cəmiyyətə çatdırılması missiyasını şərəflə yerinə yetirib. O dövrdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə gəlməsi, Onun ideyalarının cəmiyyətə çatdırılması istiqamətində böyük, hətta deyərdim ki, əvəzolunmaz işlər görüb. Həmin dövrlərdə ziyalıların Ümummilli Liderə müraciəti, Ulu Öndərin isə ziyalılara cavabı məhz "SƏS" qəzetində dərc olunurdu. Bu xidmətin nəticəsidir ki, Heydər Əliyev Öz çıxışlarında hər zaman vurğulayardı ki, "SƏS" qəzeti Onun üçün çox əziz qəzetdir. O, qəzetin xidmətlərini xüsusi qiymətləndirir, əmin olduğunu bildirirdi ki, qəzet daim inkişaf edəcək, modernləşəcək. O cümlədən, "SƏS" qəzeti həm də o qəzetlərdəndir ki, müxalif qəzet kimi fəaliyyətə başlayıb. O dövrlərdə dəfələrlə hücumlara, təzyiqlərə məruz qalıb. Amma qəzet öz yolundan, öz mövqeyindən dönməyib. "Səs" qəzeti iqtidara müxalif olub. İndiki müxalifət qəzetlərindən fərqli olaraq, dövlətə və xalqa müxalif mövqedə dayanmayıb. Bir növ qəzet o dövrdə müxalif mətbuatın ənənəsini yaradıb. Sonradan "Səs" qəzeti iqtidaryönümlü qəzetlərə bir mayak, məktəb rolunu oynayıb.

Eyni zamanda, ölkədə mövcud olan söz və ifadə azadlığı şəraitində çoxsaylı internet portallarının, saytlarının olması da sağlam rəqabətə imkan yaradır. Bu gün "SƏS" qəzetinin balansında SİA-nın da öz xətti, öz yeri var. Mən deyə bilmərəm ki, SİA ölkənin bir nömrəli agentliyidir. Bu, təkəbbür, yersiz, subyektiv fikir olar. Ancaq hesab edirəm ki, SİA və SƏS TV kifayət qədər auditoriyanı ətrafında cəmləyə bilib, özünün oxucu auditoriyası var. SİA və SƏS TV bu gün müasir tələblərə və mətbuatın qarşısında duran vəzifələrə cavab verir.

# Azərbaycanda aqrar sektorun inkişafı dövlətin prioritetidir

## *Prezident İlham Əliyevin tapşırığı ondan ibarətdir ki, Azərbaycan ən yüksək keyfiyyətli məhsulları dünyanın aparıcı ölkələrinin bazarlarına çıxarmalıdır*

***Azərbaycanda həyata keçirilən aqrar islahatlar nəticəsində kənd təsərrüfatının dinamik inkişafı təmin edilib. Aqrar sektorda əsaslı dəyişikliklər həyata keçirilib, yeni iqtisadi və mülkiyyət münasibətləri formalaşıb, normativ-hüquqi baza təkmilləşdirilib.***



Kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin gücləndirilməsi, yeni çağırışlara uyğun sahə üzrə strateji hədəflərin və institusional



dəyişikliklərin müəyyən edilməsi sahənin keyfiyyətcə yeni mərhələyə keçməsinin təməlini qoyub. Əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi, aqrar sahədə ixrac potensialının artırılması məqsədi ilə ölkədə müasir aqroparklar və iri fermer təsərrüfatları təşkil edilir. Bu gün aqrar sahədə yeni aqroparkların yaradılması sürətlə gedir və bu proses geniş vüsət alıb. Dövlətin təşəbbüsü və maliyyə dəstəyi ilə 32 iri fermer təsərrüfatı yaradılıb. İndi isə 38 böyük aqropark yaradılır.

### Pambıqçılığın şöhrəti bərpa edildi

Bütövlükdə, dövlət aqrar sektorunun inkişafı üçün bütün sahələrdə yüksək səviyyəli fəaliyyət həyata keçirir. Artıq dövlətin həyata keçirdiyi səmərəli tədbirləri nəticəsində pambıqçılığın şöhrəti bərpa edilir. Artıq pambıqçılıqla məşğul olmaq istəyənlərin sayı artır. Bu da pambıqçılıq rayonlarında işsizliyi, demək olar ki, tamamilə aradan qaldırmaq üçün yaxşı şərait yaradır. Əgər 2015-ci ildə 35 min ton pambıq tədarük edilmişdisə, keçən il bu rəqəm təxminən 90 min tona çatıb. Ötən il 51 min hektarda pambıq əkilmişdisə, bu il 136 min hektarda pambıq əkilib. Məsələ ilə bağlı Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında çıxış edən Prezident İlham



Əliyev deyib ki, biz əkin sahələrini təqribən 3 dəfə artırmışıq: "Əgər biz orta məhsuldarlığı 20 sentner götürsək, bu il 260-270 min ton pambıq gözlənilə bilər. Yəni bu, çox da ola bilər, az da. Bu, artıq hava şəraitindən və o cümlədən, texniki xidmətdən asılıdır. Amma hər halda, biz artıq pambıqçılıqda çox ciddi dönüş yarada bildik. Pambıq həm gözəl ixrac məhsuludur, dünya birjalarında satılır, eyni zamanda, Mingəçevir Yüngül Sənaye Parkının fəaliyyəti üçün də resurs bazasıdır. Biz, əlbəttə, çalışacağıq ki, hazır məhsulu ixrac edək. İyirmidən çox rayonda pambıq becərilir. Bir daha, qeyd etməliyəm ki, həmin rayonlarda bizim üçün ənənəvi olan bu sahəyə çox böyük maraq var. Bizim bu təşəbbüsümüz çox yüksək qiymətləndirilir".

### Baramaçılıqda operativ qaydada ciddi dönüş yaradıldı



Aqrar sektorun inkişaf etdirilməsi prosesi baramaçılıqdan da yan ötmədi. Əgər 2015-ci ildə cəmi 200 kiloqramdan bir qədər çox barama tədarük edilmişdisə, ötən il bu sahədə operativ qaydada ciddi dönüş yaradıldı, lazımi materiallar idxal edildi, tinglər gətirildi və ötən il 70 ton barama tədarük edildi. Prezident İlham Əliyevin sözlərilə desək, 200 kiloqram hara, 70 ton hara?: "Bu proses davam etdirilir. Mənə verilən məlumata görə, bu il 244 ton yaş barama tədarük edildi. Yəni keçən ilə nisbətən 3,4 dəfə artım var. Otuz rayonda baramaçılıq inkişaf edir və 739 kənddə insanlar baramaçılıqla məşğul olurlar. Yəni bu sahə çox gəlirli sahədir, o qədər də böyük zəhmət tələb edən sahə deyil. Qısa müddət ərzində insanlar yaxşı pul qazanırlar və yerində də pulunu alırlar. Ona görə, baramaçılığın inkişafına verdiyimiz təkan, əminəm ki, çox böyük nəticəyə gətirib çıxaracaq. Bizim təbii şəraitimiz elədir ki, ölkəmizin əksər yerlərində baramaçılığın yaxşı perspektivləri var. Dövlət öz dəstəyini bundan sonra da göstərəcək".

### On üç rayonda tütünçülüklə məşğul olurlar

Haqqında danışdığımız sahələrlə yanaşı, tütünçülük sahəsində də ciddi dönüş əldə edilib. Artıq 13 rayonda tütünçülüklə məşğul olurlar. Keçən ilə nisbətən tütünçülük üçün nəzərdə tutulan əkin sahələri 35 faiz artıb. İndi 3200 hektarda tütün becərilir. Prezident İlham Əliyevin sözlərilə desək, bu sahə daha da geniş ola bilər: "Çünki tütünçülüklə məşğul olan bu 13 rayonda kifayət qədər böyük torpaq sahələri var. Tütünçülük də çox gəlirli sahədir. Dövlət yenə də öz dəstəyini göstərir, subsidiyalar verilir. Eyni zamanda, tütünün ixracı ilə bağlı dövlət öz imkanlarını ortaya qoyur. Mən əvvəllər də demişəm, biz, əlbəttə, tütünü ixrac etməliyik. Ancaq hazır məhsulu ixrac etsək, daha yaxşı olar. Bu məqsədlə işlər gedir. İndi yeni tütün fabriklərinin yaradılması istiqamətində addımlar atılır. Ümid edirəm ki, bu addımlar uğurlu olacaqdır və biz hazır məhsulu dünya bazarlarına çıxaracağıq".

### Ən gəlirli sahələr də dirçəldilir

Ölkəmizdə dövlətin dəstəyilə çayçılığın bərpası istiqamətində də işlər gedir. Azərbaycan çayı bu gün xarici ölkələrdə tanınır. Məhz yeni çay plantasiyalarının salınması və müasir texnologiyaların gətirilməsi nəticəsində daxili xammal hesabına daha çox çay istehsal edə biləcəyik. Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında çıxış edən Prezident İlham Əliyevin dediyi kimi, yeni texnologiyalar məhsuldarlığı bir neçə dəfə artıra bilər: "Bu sahəyə də cənub zonasında çox böyük maraq var. Eyni zamanda, cənub zonasında hazırda çəltikçilik də çox geniş vüsət alır. Buna da çox böyük maraq var. Dövlət xüsusi texnika alıbdır. Çünki çəltikçilik çox böyük əziyyət, zəhmət tələb edən bir sahədir. Fermerlərin işini yüngülləşdirmək üçün müasir texnika alınıb gətirilibdir ki, çəltikçilik sahəsi əziyyətsiz inkişaf etsin".

Qeyd olunanlarla yanaşı, iyirmi yeddi rayonda 14 min hektarda şəkər çuğunduru əkilib. On doqquz rayonda 9300 hektarda soya əkilib. Eyni zamanda, 500 hektar badam bağlarının salınması nəzərdə tutulur. Nəzərə alsaq ki, bizdə cəmi 1000 hektar badam bağları var, onların da 900 hektarı Naxçıvan Muxtar Respublikasındadır, beş yüz hektar birinci mərhələdə yaxşı göstəricidir. Badam emalı zavodunun tikintisi də nəzərdə tutulmalıdır. Taxılçılıqla bağlı məsələlər daim gündəlikdədir. Bu sahədə hazırda orta məhsuldarlıq 28,8 sentnerdir. Ən böyük məhsuldarlıq aşağıdakı rayonlardadır: Saatlı rayonu 42 sentner, Ağcabədi 38 sentner, Sabirabad 40 sentner, Beyləqan 33 sentner, Bərdə 40 sentner, Ağdam 39 sentner, Hacıqabul 32 sentner, Qax 31 sentner, Xaçmaz 32 sentner, Yevlax 38 sentner, Tərtər 38 sentner, Şəmkir 33 sentner, İsmayıllı 40 sentner, Qəbələ 32 sentner, Cəbrayıl 32 sentner, Gəncə 32 sentner. Bunlar yaxşı rəqəmlərdir və bu, deməyə əsas verir ki, daha da böyük məhsuldarlıq əldə etmək mümkündür.

Bir sözlə, görünən odur ki, Azərbaycanda aqrar sektorun inkişafı dövlətin prioritetidir və bu sahənin sürətli tərəqqisi ölkəmizin ərzaq təhlükəsizliyinin təmin edilməsilə yanaşı, ölkəmizə əlavə gəlir də gətirəcək.

***"Səs" Analitik Qrupu***

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

25 iyul 2017-ci il

# NURƏDDİN MUSTAFAYEV: İcra xidmətində qanunçuluğun möhkəmləndirilməsi bu sahədə işin səmərəliliyinə müsbət təsir göstərib

***Xəbər verdiyimiz kimi, bu günlərdə Ədliyyə Nazirliyində məhkəmə qərarlarının icrası vəziyyətinin müzakirəsinə həsr olunmuş geniş müşavirə keçirilib. Bununla əlaqədar insan hüquqlarının təmin edilməsində, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasında mühüm əhəmiyyət kəsb edən məhkəmə və digər orqanların qərarlarının icrası sahəsində mövcud vəziyyət və çətinliklər, aparılan islahatlar və qarşıda duran məqsədlər barədə Ədliyyə Nazirliyi İcra baş idarəsinin rəisi - baş icra məmuru, baş ədliyyə müşaviri Nurəddin Mustafayev AZƏRTAC-a məxsusi müsahibə verib. Müsahibəni təqdim edirik:***



***- Hörmətli Nurəddin müəllim, ilk öncə məhkəmə qərarlarının icrasına bilavasitə rəhbərlik edən baş icra məmuru kimi, bu sahənin əhəmiyyəti barədə oxuculara məlumat verməyinizi istərdik.***

- Çox sağ olun. Fikrimcə, insan hüquq və azadlıqlarının təmin edilməsində məhkəmə qərarlarının icrası qədər vacib və əhəmiyyətli olan sahələr çox azdır. Məhkəmə icraatının davamı və son mərhələsi olan məhkəmə qərarlarının icrası İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarında vurğulandığı kimi, ədalət mühakiməsinin tərkib hissəsidir. Hüququn bərpası, ədalətin təntənəsi məhz qərarın icrası anında tamamlanır və həmin anda haqq sahibində daxili bir razılıq və könül xoşluğu yaradır. Ona görə də bu sahə əhəmiyyətli və məsuliyyətli olduğu qədər, qərarların icrasına nail olmağın faydası və mənəvi zövqü də böyükdür.

İcra icraatını bilavasitə həyata keçirən Ədliyyə Nazirliyinin İcra xidmətinin əsas fəaliyyəti vətəndaşların hüquqlarının bərpa olunmasını, qərarların icrasını vaxtında və dürüst təmin etməkdir. Bu, olduqca məsuliyyət və operativlik tələb edir. Çünki əhalinin məhkəmələrə inamının təzahürü olaraq baxılan işlərin sayının çoxalması icra xidmətində də iş həcminin həddindən çox artmasına səbəb olub. Təkcə ötən il ərzində yerli icra qurumlarının icraatında olan icra sənədlərinin sayı 712 mini ötüb, bu ilin birinci yarısında isə 695 minə çatıb. Bu, olduqca böyük rəqəmdir və mən deyərdim, arzuolunmazdır. Doğrudur, bunun bir sıra obyektiv səbəbləri, eyni zamanda, məhkəmə mübahisələrinin çoxluğunun müsbət tərəfləri vardır - vətəndaşların məhkəmələrə inamının artması, aralarındakı mübahisələri məhz bu müstəvidə, mədəni səpkidə həll etməyə üstünlük verməleri kimi. Bununla belə son dövrlər məhkəmə işlərinin, dolayısı ilə icra sənədlərinin kəskin artması iqtisadi mübahisələrlə bağlı olur. Təsadüfi deyil ki, icraatda olan icra sənədlərinin böyük bir qismi kredit mübahisələri ilə əlaqədardır. Buna baxmayaraq, İcra xidməti olaraq üzərimizə düşən vəzifə, sözsüz ki, qərarların icrasını təmin etməkdir. Ona görə də bu sahədə işin səmərəli qurulması, elmi texniki nailiyyətlərin tətbiqi daim diqqət mərkəzində saxlanılır.

***- İcra işinin yaxşılaşdırılması istiqamətində nə kimi islahatlar aparılır?***

- Təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən genişmiqyaslı məhkəmə-hüquq islahatları nəticəsində ədalətli məhkəmə hüququnun ayrılmaz tərkib hissəsi olan məhkəmə qərarlarının icrası işi yenidən qurulub, ilk növbədə, icra xidmətinin fəaliyyəti və strukturu təkmilləşdirilib, Konstitusiyada məhkəmə qərarlarının icra edilməməsinə görə məsuliyyət təsbit olunub, qanunvericilik əsaslı şəkildə yenilənərək təsirli icra mexanizmləri yaradılıb, icra məmurlarının səlahiyyətləri genişləndirilib, məhkəmə və digər orqanların qərarlarının icra edilməməsinə görə inzibati və cinayət məsuliyyəti sanksiyaları sərtləşdirilib.

Eyni zamanda, borclunun ölkədən getmək hüququnun məhdudlaşdırılması mexanizmi təkmilləşdirilərək, insan hüquqlarının təmin olunması baxımından qadağanın daha çevik götürülməsi məqsədilə icra xidmətində "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi quraşdırılıb. Bununla bağlı nazirliyin internet saytında elektron xidmət fəaliyyət göstərir.

Onu da xüsusi qeyd etmək lazımdır ki, dövlət orqanları tərəfindən məhkəmə qərarlarının icrası vəziyyəti Azərbaycan Prezidentinin daim nəzarətindədir. Bu məsələ ilə bağlı hər altı aydan bir müvafiq hesabatın dövlətimizin başçısına təqdim olunması icra prosesi iştirakçılarının məsuliyyət hissinin artırılmasına xidmət edərək müsbət nəticəsini verir.

Ümumiyyətlə, bu sahədə işin müasir tələblər səviyyəsində qurulması, təcrübədə meydana çıxan çətinliklər, mövcud iş yükünün azaldılması istiqamətində mühüm addımlar atılır, beynəlxalq təcrübə öyrənilməklə qanunvericilik daim təkmilləşdirilir, icra orqanlarının fəaliyyətində operativliyin və şəffaflığın təmin olunması məqsədilə elektron icra sisteminin tətbiqi üzrə əməli tədbirlər görülür.

Ötən ilin sonunda "İcra haqqında" Qanuna dəyişikliklər edilməklə məhkəmələr və icra qurumları arasında iş yükü bölgüsünə yenidən baxılıb, icra olunmuş icra sənədləri üzrə icraata xitam verilməsi və dayandırılması səlahiyyətlərinin icra məmurlarına verilməsi ilə bu sahədə operativliyə nail olunub, əlavə yazışmalara son qoyulub, vaxta və dövlət xərclərinə qənaət edilib.

Bundan əlavə, icra məmurları tərəfindən qanunçuluğa, etik davranış qaydalarına riayət olunması, insanlara layiqli xidmət göstərilməsi, onların müraciətlərinə daim həssaslıqla yanaşılması, korrupsiyanın yolverilməzliyi fəaliyyətimizin əsas rəhbər prinsipləridir.

Ötən bir ildə icra xidmətində qanunçuluğun möhkəmləndirilməsi, əmək və icra intizamına diqqətin artırılması, tələbkarlığın və nəzarətin gücləndirilməsi, hər bir icra məmurunun fəaliyyətinin fərdi olaraq qiymətləndirilməsi bu sahədə işin səmərəliliyinə müsbət təsir göstərib.

Statistikaya nəzər yetirsək görərik ki, ötən il görülmüş kompleks tədbirlər nəticəsində əvvəlki illə müqayisədə 34 faiz çox - 300 mindən artıq işin icrasına nail olunub, fiziki, hüquqi şəxslərə və dövlət büdcəsinə, o cümlədən vergi borcları ilə bağlı təxminən 3 dəfə çox - 560 milyon manatadək vəsait ödətdirilib.

Bu sahədə göstəricilər cari ildə də artan templə davam edib, altı ay ərzində icrası təmin edilən işlərin sayı 54 faiz artaraq 288 mini ötüb.

Sözsüz ki, məhkəmə qərarlarının icrasının təmin olunması vətəndaş məmnunluğu doğurur. Lakin unutmaq olmaz ki, icra icraatında çıxış edən tərəflərdən birinin narazı olduğu hallar da mövcuddur. Belə ki, şikayətlərin böyük əksəriyyəti əsassız olmaqla bir çox hallarda bilavasitə icra məmuru ilə deyil, qarşı tərəfin hərəkətləri ilə bağlı olur.

Bununla belə vətəndaşın nə cür düşünməsindən asılı olmayaraq, onun müraciətlərinə nazirlik tərəfindən daim xüsusi həssaslıqla yanaşılır, hər bir müraciət diqqətlə öyrənilir, onun qanunamüvafiq və operativ qaydada həlli üçün konkret tədbirlər görülür. Eyni zamanda, vətəndaşlar mütəmadi nazirlikdə qəbul olunurlar, həmçinin səyyar, virtual qaydada qəbullar təşkil edilir.

Qeyd olunmalıdır ki, ötən bir ildə həyata keçirilən məqsədyönlü tədbirlərin, vətəndaşların yerlərdə müraciətlərinə və qəbulu işinə göstərilən diqqətli münasibətin nəticəsidir ki, nazirliyə qəbula gələn vətəndaşların sayında xeyli azalma müşahidə olunur, icra işi ilə bağlı müraciətlərin sayı da icraatda olan işlərin sayı kontekstində xeyli azalıb. Məsələn, cari il icraatda 700 minə qədər iş olduğu halda, daxil olan şikayətlərin sayı böyük əksəriyyəti dublikat olmaqla 9335 təşkil edib. Başqa sözlə, barəsində şikayət edilən işlərin sayı bütün işlərin heç 1 faizinə çatmır. Yəni, bu qədər işin müqabilində bu sayda müraciətin olması başa düşüləndir. Amma təbiidir ki, bu, bizi qətiyyən arxayın etmir, insanlara layiqli xidmət göstərilməsi, onların müraciətlərinə vaxtında və dürüst baxılması hər bir icra məmurunun ümdə vəzifəsidir.

Onu da əlavə etmək lazımdır ki, məhkəmə qərarlarının icrasına arzuedilən səviyyədə nail olunması vətəndaşlarda hüquq düşüncəsinin formalaşdırılmasından bilavasitə asılıdır. Bu istiqamətdə icra xidməti kütləvi informasiya vasitələrindən istifadə edərək maarifləndirici verilişlər yayır. Hər həftənin şənbə günü İctimai Televiziyada və bazar ertəsi günü İctimai Radioda yayımlanan "Qanundan kənar" verilişinin "İcra məmuru" rubrikasında İcra xidmətinin fəaliyyəti ilə bağlı ətraflı məlumatlar verilir.

***- İcra xidmətinin kadrlarla komplektləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir İKT-nin, elektron xidmətlərin tətbiqi barədə nə deyə bilərsiniz?***

- Şübhəsiz ki, işin səmərəli təşkil olunması, qarşıda duran vəzifələrin və funksiyaların uğurla yerinə yetirilməsi, ilk növbədə, mənəvi cəhətdən saf, müasir dünyagörüşünə malik, yüksək bilikli və hazırlıqlı kadrların sayəsində mümkündür. Ədliyyə orqanlarının, o cümlədən icra xidmətinin fəaliyyətinin müasir tələblər səviyyəsində qurulması da kadrlarla işin təşkilindən, onların düzgün seçilməsindən çox asılıdır.

Təsadüfi deyil ki, icra xidmətinin layiqli kadrlarla komplektləşdirilməsi məqsədilə ədliyyə orqanlarına qulluğa qəbulla bağlı keçirilən müsabiqələr nəticəsində uğur qazananların 60 faizi, əksəriyyəti gənclər olmaqla məhz icra qurumlarına təyin olunublar. Bununla yanaşı, fəaliyyətində ciddi qanun pozuntularına, o cümlədən vətəndaşların haqlı narazılıqlarına səbəb olan neqativ hallara görə xidmətin bəzi əməkdaşları ciddi cəzalandırılıb, o cümlədən ədliyyə orqanlarından xaric ediliblər.

Eyni zamanda, ötən il yerli icra qurumlarında rəhbər işçilərin rotasiyası üzrə tədbirlər görülərək İcra baş idarəsinin təcrübəli əməkdaşları həmin qurumlara rəhbər vəzifələrə təyin olunub, vəzifədə irəli çəkilməsi nəzərdə tutulan digər əməkdaşlar baş idarənin fəaliyyətinə cəlb olunaraq peşəkarlığı yoxlanılmaqla təyinatları aparılıb.

Kadrların peşəkarlığının artırılması məqsədilə, həmçinin Ədliyyə Akademiyasında mütəmadi təlimlər və ixtisasartırma kursları təşkil edilir, qabaqcıl beynəlxalq təcrübələrə yiyələnmək üçün xarici ölkələrə ezam olunurlar.

Həmçinin yerli qurumlara mün-

# NURƏDDİN MUSTAFAYEV: İcra xidmətində qanunçuluğun möhkəmləndirilməsi bu sahədə işin səmərəliliyinə müsbət təsir göstərib

təzəm olaraq, əməli köməklik göstərilir. Bu məqsədlə ötən il "İcra haqqında" Qanunun Kommentariyası hazırlanıb. Qanunun tətbiqi ilə bağlı yaranan nəzəri və praktiki məsələlərin ətraflı şərhində və mövcud boşluqların aradan qaldırılmasında mühüm töhfə olan Kommentariya hər bir icra məmurunun stolüstü kitabına çevrilib.

Xidmətin infrastrukturunun müasirləşdirilməsi və maddi-texniki bazasının möhkəmləndirilməsi üzrə də ardıcıl tədbirlər görülür. Əvvəllər əlverişsiz binalarda fəaliyyət göstərən bir sıra məhkəmələr üçün dövlət büdcəsi hesabına, habelə Dünya Bankı ilə birgə həyata keçirilən layihələr çərçivəsində yeni, müasir binaların və komplekslərin inşa olunaraq istifadəyə verilməsi ilə, həmçinin müvafiq icra qurumları üçün də yüksək tələblərə uyğun müasir iş şəraiti yaradılıb. Eyni zamanda, bəzi icra qurumlarının binaları əsaslı təmir edilərək bütün texniki avadanlıqla təchiz olunmaqla istifadəyə verilib, qurumların böyük hissəsi avtonəqliyyat vasitələri ilə təmin edilib.

İcra xidmətinin maliyyələşməsində mühüm rol oynayan və tələbi könüllü icra etməyən borclulardan tutulan icra ödənişlərinin müəyyən hissəsinin hesabına formalaşan İcra məmurlarının Xüsusi Fondu xidmətin maddi-texniki bazasının möhkəmləndirilməsinə geniş imkan verir.

Fondun vəsaitlərindən, həmçinin icra məmurlarının həvəsləndirilməsində istifadə olunur. Bu zaman əsas meyar icra məmurunun işi fərdi qiymətləndirilməklə səmərəli fəaliyyəti, icra işlərinin yerinə yetirilməsi faizi, barəsində edilən şikayətlərin sayı nəzərə alınır. Bu, icra məmurlarında stimul yaratmaqla, icra işinin keyfiyyətinə müsbət təsir göstərir.

İcra işinin səmərəliliyinin yüksəldilməsində müasir İKT-nin, innovativ xidmətlərin rolu da danılmazdır. Bu mənada məhkəmə fəaliyyətinin elektronlaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 fevral tarixli Sərəncamına əsasən, "Elektron məhkəmə" informasiya sisteminin yaradılması və bu sistemin mühüm tərkib hissəsi olan "Elektron icra"nın tətbiqi xüsusilə qeyd olunmalıdır.

"Elektron icra", ən sadə şəkildə ifadə etsək, kağız üzərindəki icraatın elektron formata köçürülməsi, zəruri icra hərəkətlərinin onlayn rejimdə, avtomatlaşdırılmış qaydada aparılmasıdır. Bu sistemin tətbiqi məqsədilə icra qurumları zəruri texniki avadanlıqlarla təmin edilib, icra xidməti əməkdaşlarının informasiya texnologiyaları üzrə bilik və bacarıqlarının artırılması ilə bağlı təlimlər keçirilib.

Cari ilin əvvəlindən bütün icra qurumlarına daxil olan icra sənədlərinin qeydiyyatı "Elektron icra" sistemi vasitəsilə aparılır. Həmçinin bu sistemin tətbiqi ilə icra işlərinə vahid qeydiyyat nömrəsinin verilməsi, işlərin icra məmurları arasında avtomatlaşdırılmış qaydada bölgüsünün aparılması, tərəflərə məlumatların elektron qaydada (elektron poçt, SMS məlumatlandırma və s.) çatdırılması, işlər üzrə prosessual müddətlərə riayət olunmasına nəzarət edilməsi və müddətlərin bitməsi ilə bağlı xəbərdaredici funksiyalara malik olunması, borcluların əmlak vəziyyətinin elektron icra xidmətinə inteqrasiya olunmuş dövlət qurumlarının elektron bazası vasitəsilə yoxlanılması, icra sənədi üzrə tərəflərin icraat materialları ilə tanış olmaq hüququndan yararlanması, statistik hesabatların səhih və avtomatlaşdırılmış şəkildə tərtib edilməsi, icra icraatı prosesində, eləcə də cəzaların icrası və məhkəmələrin müəyyən olunmuş fəaliyyət qaydasının təmin edilməsi ilə bağlı icra məmurları tərəfindən istifadə olunan prosessual sənədlərin avtomatlaşdırılmış şəkildə tərtib olunması, icra məmurlarının fəaliyyətinin fərdi qaydada qiymətləndirilməsi, elektron imzanın tətbiq edilməsi, habelə icra məmurlarının fəaliyyətinə nəzarətin gücləndirilməsi imkanı yaranıb.

Göründüyü kimi, bu sistemin faydaları olduqca çoxdur. Sistem icra xidmətinin ağır iş yükünü yüngülləşdirir, icra tədbirlərinin vaxtında, dəqiq və asanlıqla görülməsini, qanuni müddətlərə riayət olunmasını təmin edir. Eyni zamanda, icra məmurlarının fəaliyyətinə nəzarəti təmin etməklə onlarda intizamı möhkəmləndirir. Sui-istifadəyə şərait yarada bilən hallar bu sistemin tətbiqi ilə avtomatik şəkildə aradan qalxır.

Bu sahədə tədbirlər davam olunmaqdadır, "elektron icra" sisteminin bir sıra yeni komponentlərinin tətbiqi, o cümlədən hər bir icraat iştirakçısının tərəf olduğu işlə bağlı bütün məlumatları elektron qaydada əldə etmək imkanlarının yaradılması üzrə işlər görülür. Yaxın gələcəkdə bu imkanın həm Ədliyyə Nazirliyinin elektron xidmətlər bölməsi, həm də "Elektron hökumət" portalı vasitəsilə təmin edilməsi nəzərdə tutulur.

Nazirliyin elektron xidmətlər bölməsi vasitəsilə vətəndaşlar icra xidmətinin bir sıra fəaliyyət istiqamətləri, o cümlədən ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması, icra qurumları, onlar tərəfindən həbs edilmiş, icra qurumları tərəfindən hərraca çıxarılan əmlaklar, eləcə də dəyəri 5 min manatdan artıq olmayan daşınar əmlakın satışı üzrə ticarət şəbəkələri barədə məlumat almaq imkanına malikdirlər. Həmçinin borcun icra ödənişinin, icra hərəkətləri ilə bağlı xərclərin elektron qaydada ödənilməsi mümkündür.

*- Qeyd etdiniz ki, icra işinin yaxşılaşdırılması üçün hərtərəfli tədbirlər görülür. Bununla belə bəzi icra sənədlərinin icra olunmamasının səbəbini nə ilə izah etmək olar?*

- Bəzi hallarda məhkəmə qərarları bir müddət icrasız qalır. Bunun obyektiv və subyektiv səbəbləri mövcuddur. Subyektiv səbəblər əsasən bəzi icra məmurlarının işə laqeyd münasibəti və vətəndaşlarla münasibətlərin düzgün qurulmamasıdır. Bu hallarda həmin icra məmuruna qarşı sərt, o cümlədən intizam tənbeh tədbirləri görülür. Amma əksər hallarda məhkəmə qərarlarının icra olunmamasının səbəbi obyektiv amillərlə bağlı olur. Belə ki, borclunun icradan yayınmaqla axtarışda olması, habelə ölkə hüdudlarını tərk etməsi, ona məxsus hər hansı əmlakın olmaması tələbin qanunla müəyyən edilən müddətdə icrasını demək olar ki, mümkünsüz edir. Təəssüf ki, bu cür icra işlərinin sayı az deyil.

*- Ölkə başçısının cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı tapşırıqlarına uyğun olaraq azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasına nəzarət üzrə hansı işlər görülür?*

- Əvvələ qeyd etməliyəm ki, Azərbaycan Prezidentinin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 2017-ci il 10 fevral tarixli Sərəncamı insan haqlarının, o cümlədən məhkumların hüquqlarının daha möhkəm qorunmasına xidmət etməklə cəza siyasətinin yumşaldılmasına, bir sıra cinayətlərin dekriminallaşmasına, azadlıqdan məhrum etməyə alternativ cəzaların geniş tətbiqinə zəmin yaradacaq.

Dövlətimizin başçısının Sərəncamı bu sahədə fəaliyyətin müasir dövrün tələbləri səviyyəsində qurulmasına, səmərəli idarəetmənin təşkilinə, mövcud nöqsanların aradan qaldırılmasına, korrupsiyanı istisna edən şəraitin təmin edilməsinə, müasir İKT-nin imkanlarından geniş istifadə olunmasına xidmət etməklə kompleks institusional, qanunverici və praktiki tədbirlərin görülməsini nəzərdə tutur. Bununla bağlı Ədliyyə Nazirliyinə çoxsaylı, o cümlədən ictimai işlər cəzasının formal icrası təcrübəsinin qarşısının alınması, bu və azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan digər cəzaların icrasına effektiv nəzarətin təmin edilməsi ilə bağlı mühüm tapşırıqlar verilib.

Bu və digər tapşırıqların icrası əlaqədar nazirlik tərəfindən təxirəsalınmadan kollegiya iclası keçirilərək aidiyyəti tədbirlər müəyyən edilərək həyata keçirilməyə başlanılıb.

Artıq Sərəncamın icrası ilə bağlı Ədliyyə Nazirliyinin, Ali Məhkəmənin və Baş Prokurorluğun məsul əməkdaşlarından ibarət yaradılmış işçi qrup tərəfindən bir sıra konkret tədbirlər görülüb, beynəlxalq təcrübə öyrənilməklə cinayət qanunvericiliyi ətraflı təhlil olunmuş, cinayətlərin dekriminallaşdırılması, cəzaların humanistləşdirilməsi və s. ilə bağlı müvafiq qanun layihələri hazırlanaraq təqdim olunub. Habelə ölkəmiz üçün yeni olan Probasiya xidmətinin işinin təşkili, cəzaların icrası və qətimkan tədbirlərinin tətbiqi zamanı elektron nəzarət vasitələrinin tətbiqi üzrə konkret addımlar atılıb.

Azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaların icrasına nəzarəti həyata keçirən nazirliyin İcra xidməti tərəfindən yerli icra hakimiyyəti orqanları ilə səmərəli qarşılıqlı fəaliyyət qurularaq ictimai işlər cəzasının icra olunacağı yerlərin siyahılarının müəyyən edilməsi ilə bağlı konkret işlər görülüb, bu cəzaya məhkum olunmuş şəxslərin cəlb ediləcəyi işlərin növləri və belə işlərin keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi qaydası, habelə məhkumların ictimai işlər növündə cəzanı çəkməkdən yayınmasına şərait yaradılmasına görə vəzifəli şəxslərin məsuliyyətini müəyyən edən qanun layihəsi hazırlanaraq aidiyyəti üzrə təqdim edilib.

Bu sahədə tədbirlər davam olunur və heç şübhəsiz ki, dövlətimizin başçısının tapşırıqlarından irəli gələn vəzifələrin mütəşəkkil qaydada, vaxtında və dürüst icrası sayəsində müsbət nəticələrə nail olunacaq.

*- İcra xidmətində görülmüş işlər barədə ətraflı məlumat verdiniz. Son olaraq nəyi əlavə etmək istərdiniz?*

- Sonda Sizə təşəkkürümü bildirirəm. Son dövrdə apardığımız təhlillər onu göstərir ki, icra sənədlərinin sayı ilbəil kəskin artsa da, elmi texnologiyaların da tətbiqi ilə xidmətimiz onların icrasını təmin etməyə qadir olacaq. Qarşımızda duran vəzifə qanunun üzərimizə qoyduğu öhdəlikləri düzgün icra etmək, bunun üçün fəaliyyətimizi günü-gündən təkmilləşdirmək, əməkdaşlarımıza layiqli iş şəraiti yaratmaq, vətəndaşlara isə layiqli xidmət etməkdir.

*- Nurəddin müəllim, bizə ayırdığınız vaxta və dəyərli fikirlərə görə təşəkkürümüzü bildirir, gələcək işlərinizdə uğurlar arzu edirik.*

## Naxçıvanda vətəndaşlar müasir peşə təhsili almaq imkanları ilə təmin ediliblər

Muxtar respublikada vətəndaşların müasir peşə təhsili alma imkanlarının təmin edilməsi diqqət mərkəzindədir. Naxçıvan Regional Peşə Tədris Mərkəzində bu məqsədlə mütəmadi olaraq kurslar təşkil edilir. AZƏRTAC xəbər verir ki, cari ilin 6 ayı ərzində mərkəzə 156 müdavim qəbul olunub. Onlardan 6-sı sağlamlıq imkanları məhdud vətəndaşlardır. Həmçinin 51 nəfər ixtisasartırma kurslarına cəlb edilib. Penitensiar Xidmətin Cəzaçəkmə Müəssisəsində olanların sayı isə 24-dür. Mərkəzdə muxtar respublikanın bütün bölgələrindən olan müdavimlər də kurslar keçə bilər. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətindən verilən məlumata görə, mərkəzi uğurla bitirən vətəndaşların 66-sı müvafiq yerlərdə işlə təmin olunublar.

Qeyd edək ki, 2009-cu il aprelin 7-də istifadəyə verilən Regional Peşə Tədris Mərkəzində ayrı-ayrı ixtisaslar üzrə müdavimlər təhsil alır. Hazırda təhsil ocağında qadın bərbəri, bərbər, elektrik montyoru ixtisasları üzrə kurslar keçirilir. Qaz avadanlıqlarının təmiri və istismarı üzrə çilingər kurslarında isə ixtisas artırmaq mümkündür.

# Soçi görüşü ermənilərı narahat edib

## Azər Badamov: *“Prezidentlərin Soçi görüşü isə iki ölkə arasındakı yüksək dostluq, qonşuluq və strateji tərəfdaşlıqdan irəli gəlir”*



Müsahibimiz millət vəkili Azər Badamovdur

***- Azər müəllim, Azərbaycan və Rusiya prezidentlərinin Soçi görüşünü gözlənilmədən baş tutan bir görüş kimi qiymətləndirmək olarmı?***

- Mən belə düşünmürəm. Çünki gözilənilməz görüşlər fövqəladə hallarda baş tutur. Prezidentlərin Soçi görüşü isə iki ölkə arasındakı yüksək dostluq, qonşuluq və strateji tərəfdaşlıqdan irəli gəlir. Rusiya ilə Azərbaycan arasındakı münasibətlər dərin köklərə malikdir və bu münasibətlər dostluq şəraitində inkişaf edir. Prezident Putinin Soçiyə gəlişində, məhz Prezident İlham Əliyevi dəvət etməsi də ölkəmizə olan yüksək münasibətdən irəli gəlir.

***- Sizcə, bu görüşdə Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Rusiya hansısa bir prinsipial razılaşmanın əldə edilməsi üçün hansısa bir təşəbbüslə çıxış etdiyini demək olarmı?***

- Rusiya ilə Azərbaycan arasında müxtəlif sahələrdə geniş əməkdaşlıq əlaqələri mövcuddur. Görüşdə prezidentlər ölkələrimizin gələcəkdə əməkdaşlığın inkişaf perspektivləri haqqında geniş fikir mübadiləsi aparmaqla yanaşı, bizim üçün vacib Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli mövzusuna toxunulmuşdur. Biz bilirik ki, Rusiya dünya güclərindən birisidir və həm də Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həll olunması üçün ATƏT-in yaratdığı Minsk Qrupunun həmsədrlərindən olmaqla, məsələnin həllinə təsir gücünə malikdir. Ona görə də, cənab Putinlə Cənab Prezidentimizin Soçi görüşü Dağlıq Qarabağ probleminin həllinə öz təsirini göstərə bilər.

***- Görüşdən sonra Dağlıq Qarabağ cəbhəsində erməni təxribatının bir qədər intensivləşdiyi müşahidə olunur. Bunu Soçi görüşü ilə bağlı hansısa məqamlara Sarkisyanın bir etirazı kimi qiymətləndirmək olar?***

- Prezidentlərin Soçi görüşü erməniləri narahat etməyə başlamışdır. Xüsusilə, qeyd etmək istəyirəm ki, erməni siyasətçiləri prezidentlərin Soçi görüşü haqqında danışanda, Azərbaycan-Rusiya yaxınlaşmasının Dağlıq Qarabağ münaqişəsinin həllinə təsir edə biləcəyinin mümkünlüyündən danışırlar. Ona görə də, cəbhədə ermənilərin fəallaşmasını prezidentlərin Soçi görüşünə öz etirazını bildirməsi kimi dəyərləndirmək olar. Amma qəhrəman Milli Ordumuz düşmənin hər bir təxribatının qarşısını layiqincə alır və düşmənə böyük zərbələr vurur. Düşmən anlamalıdır və anlayır ki, təkbaşına heç vaxt Azərbaycan Ordusunun qabağında dayana bilməz. Gün gələcək, hamı başa düşəcəkdir ki, Azərbaycan torpaqları işğaldan azad olunmalıdır və erməniləri də buna məcbur edəcəklər.

***- Fakt budur ki, Dağlıq Qarabağ münaqişəsinin həllində Ermənistan qeyri-konstruktiv mövqe sərgiləyir və beynəlxalq təşkilatlar isə susqunluq nümayiş etdirirlər. Səbəb nədir?***

- Dünya dövlətləri və beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirlər və torpaqlarımızın qeyd-şərtsiz azad edilməsi barəsində qətnamələr qəbul edilmişdir. Amma təəssüflər olsun ki, üzdə qətnamələr qəbul edilsə də, həqiqi mənada, qətnamələrin həyata keçirilməsi istiqamətində bu günə qədər heç bir tədbir görülməmişdir. Ermənistan da bundan faydalanaraq, danışıqlardan yayınmağa və məsələnin həllinə qeyri-konstruktiv mövqe sərgiləməkdə davam edir. Qeyd etdiyiniz kimi, beynəlxalq təşkilatlar da susqunluq nümayiş etdirirlər və Ermənistana heç bir təzyiq göstərmirlər. Səbəbi isə aydındır. Bizim inkişafımızı həzm edə bilməmələri və müsəlman olmağımızdır. Amma biz daha da güclənməliyik, ordumuzu daha da gücləndirməliyik. Gözləməliyik ki, keçən ilin aprelində olduğu kimi, fürsət düşəndə, bütün gücümüzü səfərbər edərək, qısamüddətli müharibə ilə işğala son qoyaq. Biz öz gücümüzə arxayın olmalıyıq və kiminsə erməniyə təzyiq göstərəcəyinə inam çox azdır.

**GÜLYANƏ**

# Sədaqət Vəliyeva: “Jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi dövlətin prioritetlərindəndir”



“Müasir Azərbaycan dövləti dünya ölkələri üçün nümunə sayıla biləcək addımları ilə daim fərqlənib. İstər iqtisadi, istər sosial, istərsə də mədəni sahələrdə novatorluq edən Azərbaycan dövləti media sahəsində də qlobal miqyasda bir ilkə imza atdı. Məhz Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə jurnalistlər üçün binalar inşa edildi və 410 KİV nümayəndəsi ailəsinin mənzilə olan ehtiyacları dövlət hesabına təmin edildi. Bu, həqiqətən də, dünyada analoqu olmayan bir tarixi hadisədir”. Bu fkirləri “SƏS” qəzetinə Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.

Sədaqət Vəliyevanın sözlərinə görə, müstəqil Azərbaycanda milli mətbuata olan diqqət və qayğı, ölkədə söz və fikir azadlığının təminatı, plüralizmin bərqərar olması Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasi kursun bəhrələridir: “Bu gün həmin siyasi kursu uğurla davam etdirən Prezident İlham Əliyevin hərtərəfli qayğısı nəticəsində Azərbaycanda KİV sahəsində mühüm layihələr icra edilir. Bütün azadlıqların təminatı ilə yanaşı, jurnalistlərin sosial problemlərinin həlli məsələsi də daim dövlətin diqqəti mərkəzində olub. Bu qayğının ən bariz nümunəsi isə, 2010-cu ildən başlayaraq, jurnalistlərinin sosial müdafiəsinin möhkəmləndirilməsi, mətbuat işçilərinin mənzil şəraitinin yaxşılaşdırılması və onlar üçün yaşayış binasının tikilməsi məqsədilə Prezident İlham Əliyev tərəfindən imzalanan sərəncamlardır. Məhz bu məqsədlə bu günədək 30 milyon manatdan artıq vəsait ayrılıb”.

**R.RƏSULOV**

# Gəncə şəhərində “Yerində tarix” adlı ekotur keçirilib




Gəncə şəhərində “Yerində tarix” adlı ekotur keçirilib. Layihə Gəncə şəhər icra hakimiyyətinin, Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatının dəstəyi, AMEA Gəncə Bölməsinin, YAP Gəncə şəhər təşkilatı gənclər birliyinin və “Avropa Gənclər Paytaxtı- 2016” İctimai Birliyinin təşkilatçılığı ilə gerçəkləşib.Ekoturda iştirak edən 80-ə yaxın fəal gənc 15 km çətin şəraitdə yol qət ediblər. Ekoturun keçirilməsində məqsəd gənclərin asudə vaxtının səmərəli təşkili, onların ekoloji bilik və bacarıqlarını inkişaf etdirmək, həmçinin, Gəncənin qədim tarixini özündə əks etdirən maddi-mədəniyyət abidələri ilə yaxından tanış olmaqdır. Ekotur Göygöl rayonunun Zurnabad kəndində yerləşən tarixi abidələrlə və Qədim Gəncə şəhərinin mövcud olduğu ərazinin tanışlığı ilə başlayıb. Həmçinin, hərbi-vətənpərvərlik, şəxsi keyfiyyətlərin inkişafı mövzularında təlimlər, açıq havada mədəni-kütləvi idman proqramları, Gəncənin tarixinə, mətbəxinə, tarixi şəxsiyyətlərinə həsr edilən intellektual yarışlar və müxtəlif oyunlar təşkil edilib.

**Rövşən**

# 1 saylı “ASAN kommunal”da xidmət pəncərəsi fəaliyyətə başladı

***1 saylı “ASAN Kommunal” mərkəzində Əmək Münasibətlərinin Monitorinqi Mərkəzinin xidmət pəncərəsi yaradılıb. Bu barədə SİA-ya Dövlət Agentliyindən məlumat verilib.***

Xidmət pəncərəsi vasitəsilə Bakı şəhərində tikilməkdə olan çoxmənzilli yaşayış binalarının tikintisi ilə məşğul olan fiziki və hüquqi şəxslər, habelə tikinti obyektlərində çalışan işçilər üçün qeyri-rəsmi məşğulluğa qarşı mübarizə ilə əlaqədar maarifləndirmə və təbliğat kompaniyaları haqqında, həmçinin “Tikinti Monitorinq Sistemi”nin fəaliyyəti, ondan istifadə qaydaları və əmək qanunvericiliyi üzrə məlumatlandırılma işi aparılacaq. Bundan başqa qeyri-rəsmi məşğulluğa qarşı mübarizə ilə əlaqədar tədbirlər barədə genişmiqyaslı maarifləndirmə, məlumatlandırma və təbliğat kompaniyasının keçirilməsi, kütləvi informasiya vasitələrində qeyri-rəsmi məşğulluğun mənfi nəticələrinin, formal məşğulluğun üstünlüklərinin ictimaiyyətin diqqətinə çatdırılması, qeyri-rəsmi məşğulluğa qarşı video çarxların, stendlərin, broşuraların, məlumat vərəqələrinin hazırlanması və nümayişi də nəzərdə tutulur.




Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidentinin 28 aprel 2017-ci il tarixli 1349 nömrəli Fərmanı ilə tikinti sahəsində vətəndaşların əmək hüquqlarının qorunması, sosial təminatlardan yararlanmasının təmin edilməsi, əmək münasibətlərinin rəsmiləşdirilməsinə nəzarətin gücləndirilməsi və monitorinqin müasir innovasiyalardan istifadə etməklə təşkili məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi yaradılıb. Fərmana əsasən pilot layihə çərçivəsində Mərkəzə Bakı şəhərində tikilməkdə olan çoxmənzilli yaşayış binalarının və onların inşası ilə məşğul olan fiziki və hüquqi şəxslərin elektron reyestrini yaratmaq, aidiyyəti dövlət informasiya sistemlərinə inteqrasiya olmaq və tikinti obyektlərində real vaxt rejimində işləyən müşahidə kameralarının quraşdırılması tapşırılıb.

# Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir

***Birmənalı şəkildə, demək olar ki, Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir. Azərbaycan gəncliyi ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə seçilir, siyasi, iqtisadi, humanitar və sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Dövlət-gənclər siyasəti müvafiq hüquqi sənədlərdə öz əksini taparaq, hökumət qurumları tərəfindən həyata keçirilir.***



Gənclər siyasətinin əsas istiqamətləri “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir və həyata keçirilir. Qanuna əsasən, gənclərin mənəvi-əxlaqi tərbiyəsi və mədəni həyatda iştirakı, istedadlı gənclərə dövlət qayğısı, gənclərin sağlamlığının qorunması və fiziki inkişafı, gənclərin məşğulluğunun təmin edilməsi, gənc ailələrə, gənclər təşkilatlarına dövlət yardımı və digər bu kimi müddəalar Azərbaycan gənclərinin cəmiyyətin inkişafında və öz problemlərinin həllində rolunu artırmağa imkan verir. Azərbaycan dövlətinin qurucusu və memarı Ümummilli Lider Heydər Əliyev xalqın çağırışı ilə ikinci dəfə hakimiyyətə gəldikdən sonra, həyata keçirdiyi ilk islahatlardan biri də gənclərlə bağlı dövlət siyasətinin müəyyənləşdirilərək, həyata keçirilməsi olmuşdur. Bu baxımdan, demək olar ki, ölkəmizdə dövlət- gənclər siyasətinin formalaşdırılması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. “Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında” Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 26 iyul tarixli Fərmanı, “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanunu və gənclər siyasəti sahəsində digər normativ-hüquqi aktlar, habelə, Azərbaycan gənclərinin forumlarının keçirilməsi gənclərlə iş sahəsinin hüquqi əsaslarını və icra mexanizmini müəyyən etmişdir. Gənclər və dövlət qurumları, hökumət nümayəndələri ilə açıq ünsiyyəti asanlaşdırmaq məqsədilə Ümummilli Lider Heydər Əliyev tərəfindən hələ 1995-ci ildə Azərbaycan Gənclərinin Forumunun keçirilməsi təşəbbüsü irəli sürülüb və 2 fevral 1996-cı ildə Onun təşəbbüsü ilə müstəqil Azərbaycan gənclərinin ilk forumu keçirilib.

1997-ci il fevralın 1-də forumun ildönümü münasibəti ilə gənclərin bir qrupunu qəbul edən Ulu Öndər Heydər Əliyev 2 Fevral - Azərbaycan Gəncləri Gününün elan edilməsi haqqında Sərəncam imzalayıb. Həmin vaxtdan etibarən ənənəvi olaraq hər il 2 fevral günü Azərbaycan gənclərinin bayramı kimi təntənəli şəkildə qeyd olunur. Bu gündə Ulu Öndərin əsasını qoyduğu siyasət Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir.

“Bugünkü gənc sabah ölkəmizi idarə edəcəkdir” deyən Prezident İlham Əliyev gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun təmin edilməsi və dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi məqsədilə kompleks tədbirlər həyata keçirib. 2007-ci ilin “Gənclər İli” elan edilməsi də gənclərə dövlət qayğısının ən böyük təcəssümü idi. “Gənclər İli”ndə həyata keçirilən bütün tədbirlər gənclərimizin cəmiyyət həyatında fəallığının artırılmasına mühüm töhfələr verdi. Gənclər siyasətinin ən vacib istiqamətlərindən biri də elm və təhsillə bağlıdır. Son illərdə respublikamızın əksər regionlarında müasir standartlara tam cavab verən məktəblər tikilib istifadəyə verilib, orta və ali təhsil ocaqları müasir informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunub. Hər il ali təhsil ocaqlarına qəbul imtahanlarında yüksək nəticə göstərən tələbələr Prezident Təqaüdü ilə mükafatlandırılır. Ölkə başçısının Fərmanı ilə təsdiqlənən “Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı (2007-2015-ci illər)” gənclərin xaricdə təhsili üçün geniş imkanlar açıb. Bu da Azərbaycanda intellekt kapitalının inkişafına xidmətin ən mühüm amillərindəndir.

## Ölkə gəncləri demokratikləşmə prosesində fəal iştirak edir

Açıq və tam əminliklə demək olar ki, bu gün Azərbaycan gəncliyi cəmiyyətin inkişafında fəal sosial təbəqəyə çevrilib. Ölkə gəncləri demokratikləşmə prosesində fəal iştirak edir, mədəniyyət, incəsənət, elm və digər sahələrdə parlaq nailiyyətlər qazanır, dövlətçilik ənənələrini daim uca tutur, çoxşaxəli islahatların reallaşdırılmasında yaxından iştirak edirlər. Amma razılaşmaq lazımdır ki, bəzən gənclər düşünmədən, əksər hallarda isə, valideynləri ilə məsləhətləşmədən addımlar atırlar ki, bu da sonda onların, ümumilikdə isə, cəmiyyət üçün problemlərin yaranmasına gətirib çıxarır. Bugünkü reallıqlara və üzə çıxan faktlara əsasən, demək olar ki, erkən nikaha daxil olamaq cəmiyyətimiz üçün həlli çətin görünən problemlərdəndir. Məlum faktdır ki, erkən nikaha daxil olub, onun acı nəticələrilə yaşayanlar az deyil. Bu cür evliliklərin sonu nadir halda xoşbəxtliklə bitsə də, çox vaxt tərəflərin boşanması ilə nəticələnir.

Dində də qızların erkən yaşda ərə verilməsi birmənalı qarşılanmır. Mövcud dini qaydalara görə, qız nikaha daxil olanadək təhsil almalı, ailə həyatına həm fiziki, həm də mənəvi cəhətdən hazır olmalıdır. Azərbaycanda 15-17 yaşlı analar tərəfindən doğulan uşaqların sayı 15,4 faiz artıb. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 2013-cü ildə Azərbaycanda 15-17 yaşlı analar tərəfindən 2 855, 2014-cü ildə isə 3296 uşaq dünyaya gəlib. Əvvəlki illərdə olduğu kimi, ötən il də bu yaşda dünyaya gələn uşaqların çoxu kənd yerlərinin payına düşüb. 2014-cü ildə 1054 uşaq şəhər, 2242 uşaq isə kənd yerlərində doğulub.

Qanuna görə, Azərbaycanda nikah yaşı 18-dir. Lakin istisna hallarda nikah yaşının 1 ildən çox olmayaraq, azaldılmasına icazə verilə bilər və tərəflər 17 yaşında nikaha daxil ola bilərlər. 15 yaşlı qızın ailə qurması və ana olması qanunvericiliklə ziddiyyət təşkil edir. Buna baxmayaraq, ölkədə azyaşlı anaların sayı durmadan artır. Bu halların qarşısını almaq üçün iki istiqamətdə iş aparılmalıdır. Birinci, erkən nikahla bağlı aparılan işlərin gücləndirilməsi, ikinci isə assosial ailələrlə sosial iş aparılması çox vacib şərtdir. Erkən nikah halları bütün regionlar üçün xarakterikdir. Hansısa rayonu və ya bölgəni bu ağrılı məsələdə əsas sahə kimi qeyd etmək düzgün sayılmaz. Bunu regionlar üzrə aparılan araşdırmalar və statistik nəticələr də təsdiqləyir. Belə ki, 2015-ci il də yalnız Şimal bölgəsi üzrə 12, Aran və Gəncəbasar zonası üzrə 13 faiz təşkil edirdisə, bu göstərici Cənub bölgəsində 10,5 faiz olub. Halbuki bəzi yazarlar erkən nikah hallarına daha cox Cənub bölgəsində rast gəlindiyini yazırlar. Bu baxımdan, demək olar ki, erkən nikah ümumi cəmiyyət üçün yerindən və əhatə dairəsindən asılı olmayaraq, rast gəlinən problemlərdəndir.

**İ.ƏLİYEV**

# Yaqub Mahmudov: “Prezidentlərin Azərbaycan-Rusiya münasibətlərinin daha da inkişafına yönəlmiş siyasəti təqdirəlayiqdir”



Azərbaycan və Rusiya prezidentlərinin ölkələrimiz arasında münasibətlərin daha da inkişaf etdirilməsinə yönəlmiş siyasətini alqışlayırıq. Bu münasibətlərin dərinləşdirilməsi Rusiyanın Şərq siyasətinə də müsbət təsir göstərə bilər. Bu fikirləri AZƏRTAC-a müsahibəsində Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı, akademik Yaqub Mahmudov səsləndirib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Soçidə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşünün əhəmiyyəti barədə danışan akademik qeyd edib ki, Rusiya ilə bizim tarixi əlaqələrimiz var. Ulu öndər Heydər Əliyev Rusiyada mədəniyyətin, elmin, səhiyyənin inkişafında çox mühüm rol oynayıb. Bu, tarixin inkar edilməyən səhifələridir. Azərbaycan və rus xalqları arasında geniş əlaqələr mövcuddur. Rusiyada çox güclü diasporumuz fəaliyyət göstərir. Moskvada, Rusiyanın bütün şəhərlərində Azərbaycanın görkəmli alimləri, siyasi xadimləri, mütəxəssisləri, həkimləri müxtəlif sahələrdə çalışırlar.

Mövcud reallıqdan çıxış edən Yaqub Mahmudov vurğulayıb ki, Cənubi Qafqazda Azərbaycanın mənafelərini nəzərə almadan uğurlu siyasət yeritmək mümkün deyil. Ölkəmiz qədim mədəniyyəti, bugünkü güclü potensialı, ordusu, iqtisadi gücü ilə fərqlənir və regionun lider dövlətidir. Akademik ümidvar olduğunu bildirib ki, Soçi görüşünün nəticəsi olaraq, Rusiya Azərbaycanın haqq işini daha yaxından dəstəkləyəcək, Minsk qrupunun həmsədri kimi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasında prinsipial mövqe nümayiş etdirəcək.

# Güzəştlə mənzil əldə etmək hüququ olan vətəndaşların kateqoriyaları genişləndirildi

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 iyul tarixli 1530 nömrəli və 2017-ci il 21 iyul tarixli 1560 nömrəli Fərmanları ilə güzəştlə mənzil əldə etmək hüququ olan vətəndaşların kateqoriyaları genişləndirildi. Mənzil İnşaatı Dövlət Agentliyindən AZƏRTAC-a bildirilib ki, müvafiq qanunvericilikdə edilmiş dəyişikliyə əsasən, güzəştli ipoteka kreditini almaq və dövlət agentliyinin sərəncamında olan mənzilləri güzəştlə əldə etmək hüququ olan vətəndaşların mövcud kateqoriyalarından biri genişləndirilərək, daha bir yeni kateqoriya əlavə olundu. Belə ki, “ən azı 15 il dövlət qulluğunda qulluq edən şəxs” adlı mövcud kateqoriya yeni redaksiyada, həmçinin “ən azı 15 il dövlət qulluğunun xüsusi növündə xidmət keçən şəxslər” də əhatə edəcək. Bununla yanaşı, yeni - “ən azı 3 il elmi vəzifədə işləyən elmi işçilər” kateqoriyası da əlavə olundu. Hər iki kateqoriyaya aid olan vətəndaşlar yaşından və ailə vəziyyətindən asılı olmayaraq güzəştlə mənzil əldə etmək hüququndan yararlana biləcəklər. Mənzil İnşaatı Dövlət Agentliyi yenilənmiş kateqoriyalara aid bütün vətəndaşların müraciətlərini qəbul etmək məqsədilə “Güzəştli mənzil” elektron sisteminin təkmilləşdirilməsi işini davam etdirir. “Ən azı 15 il dövlət qulluğunda qulluq edən, o cümlədən dövlət qulluğunun xüsusi növündə xidmət keçən şəxslər” adlı yenilənmiş kateqoriyaya aid vətəndaşların müraciətlərinin qəbuluna artıq başlanılıb. Müraciətlər “Elektron hökumət” portalında (www.e-gov.az) yaradılmış “Güzəştli mənzil” sistemi vasitəsilə və ya Bakı şəhərində yerləşən 1, 3 və 5 saylı “ASAN xidmət” mərkəzlərində, eləcə də Sumqayıt “ASAN xidmət” mərkəzində qəbul olunur.

“Güzəştli mənzil” elektron sistemində davam edən dəyişikliklər və müvafiq inteqrasiya işləri tamamlandıqdan sonra “ən azı 3 il elmi vəzifədə işləyən elmi işçilər” adlı kateqoriyaya aid vətəndaşların da müraciətlərinin qəbulu başlayacaq. Müvafiq texniki işlər başa çatdırıldıqda “ən azı 3 il elmi vəzifədə işləyən elmi işçilər” kateqoriyasına aid şəxslərin müraciətlərinin qəbulunun başlanma tarixi barədə əlavə məlumat veriləcək. Hər iki yeni kateqoriyaya aid şəxslər müraciət edərək “Güzəştli mənzil” sistemində elektron kabinetə sahib olduqda Mənzil İnşaatı Dövlət Agentliyinin bütün layihələri çərçivəsində inşa olunan güzəştli mənzillərin satışı zamanı artıq qeydiyyatdan keçmiş digər kateqoriyalara aid vətəndaşlarla bərabər hüquqlara malik olacaqlar.

# Ermənistanın isterikaya düçar olmasının məqamları

*Azərbaycanın Rusiya ilə münasibətlərinin artan xətlə inkişaf etməsi Ermənistanın artan xətlə süqutuna kifayət qədər zəmin yaradır*



***Son günlər, xüsusilə, Rusiya-Azərbaycan yaxınlaşması, bu ölkə rəhbərlərinin strateji əməkdaşlıq sferasında görüşlər keçirməsi və həmin görüşlərin Rusiya silahlarının Azərbaycana satılması fonunda cərəyan etməsi Ermənistanda isterik vəziyyətin yaranmasına səbəb olmaqdadır.***

İşğalçı ölkənin hərbi-siyasi və ictimai dairələri əllərinə imkan düşdükcə, Rusiyanın onlara xəyanət etdiyini bəyan edir, hətta Serj Sarkisyanın dərhal mövqeyini dəyişərək, Qərbə doğru inteqrasiya etməli olduğunu tələb edirlər. Əks halda, işğal altında qalan Qarabağda və Ermənistanla həmsərhəd bölgələrdə Azərbaycan Silahlı Qüvvələrinin üstünlüyünün getgedə artacağını, aprel müharibəsindən də ağır məğlubiyyətə uğrayacaqlarını deyən erməni dairələri çox qısa vaxtda ölkələrinin siyasi xəritədən silinəcəyi ehtimalının artmasını etiraf edirlər. Ermənistan diplomatiyasının süquta uğradığını bildirən erməni politoloqları və s. dairələri cəbhənin təmas xətlərində lokal qarşıdurmaların genişmiqyaslı hərbi əməliyyatlara çevriləcəyinin hər an reallaşacağını vuruğulayırlar.

## Rusiya artıq ermənilərə inanmır

Bu gün ermənilər bir faktor ətrafında fikirləşirlər - Rusiya nəyə görə Azərbaycana silah satır və daha əvvəllər onlara göstərdiyi hərbi yardımı dayandırır. Həmin fikirlər Yerevanda anti-Rusiya ab-havasının yaradılmasına xidmət edir.

Ancaq reallıqdan çıxış edən bəzi erməni siyasi dairələri Sarkisyan rejiminin Ruisyadan yeni silahlar almaq istədiyini desələr də, artıq Rusiyanın ermənilərə inanmadığını bildirirlər. Daha dəqiq desək, bundan qabaq satılan silahların hamısının pulları ödənilməmiş qalıb. Beləliklə, Rusiya potensial və inanılmış partnyor olaraq Azərbaycanı seçib, üstəlik, Ermənistanı silah bazarı siyahısından silib.

Başqa tərəfdən, ermənilər, eyni zamanda, aldıqları silahların pulunu vermək istəmir, onları pulsuz əldə etmək istəyirlər. Çünki ölkədə iqtisadi vəziyyətləri bərbaddır, düşmən ölkə böhran keçirir. Onlar, hətta bir müddət əvvəl, kreditlə aldıqları 200 milyon dollarlıq silah və hərbi texnikanın da, necə deyərlər, "dalından keçmək" istəyirlər. Təbii ki, Rusiya ermənilərin bu bicilliklərini anlayıb və onlarla hərbi-strateji əməkdaşlıq baxımından, soyuqluğun yaranmasında maraqlıdır. Ona görə də Ermənistanda anti-Rusiya çağırışları baş qaldırdıqca, Rusiya tərəfi daha da qıcıqlanır, bunun isə nəticəsi yalnız ermənilər üçün pis sonluqlar vəd edir. Rusiya ermənilərin bu tələblərinə adekvat cavab verir.

## Ermənistan Rusiyadan o dərəcədə asılıdır ki, bu ölkəyə qarşı, ümumiyyətlə, cınqırını belə çıxara bilməz

Eləcə də, Ermənistanın reallıqda Rusiyaya təsir etməyə nə gücü, nə maddi imkanı, nə də siyasi potensialı yoxdur. Məsələn, Rusiyanın Gümrüdə 102 saylı hərbi bazası var. Ermənilər rusları hədələyirlər ki, guya bazanı bağlayacaqlar və hətta NATO-ya, yaxud ABŞ hərbi qüvvələrinə məxsus kiçik də olsa baza yaradacaqlar. Amma reallıqda bunu da etməyə ermənilərin gücü yetməyəcək. Çünki Ermənistanın, nəinki indiki, hətta gələcək vəziyyəti və mövcudluğu da Rusiyanın hərəkətlərindən asılıdır. Yəni Ermənistan Rusiyadan o dərəcədə asılıdır ki, bu ölkəyə qarşı, ümumiyyətlə, cınqırını belə çıxara bilməz. Ermənistanın siyasi rəhbərliyinə yaxın politoloji mərkəzlər ölkənin gah Avrasiya İttifaqından, gah da KTMT-dən çıxacağını desələr də, onlar buna nail olmayacaqlar. Çünki Rusiya çox cüzi şilləsi ilə ac, böhranlı və müstəqilliyini itirmiş Ermənistana ölümcül zərbə endirə bilər.

Hər halda, bu gün Azərbaycanın Rusiya ilə münasibətlərinin artan xətlə inkişaf etməsi Ermənistanın artan xətlə süqutuna kifayət qədər zəmin yaradır.

***Rövşən NURƏDDİNOĞLU***



# Portuqaliyada yenidən güclü meşə yanğınları başlayıb

Uzun sürməyən sakitlikdən sonra Portuqaliyanın mərkəzi hissəsində yenidən güclü meşə yanğınları baş qaldırıb. AZƏRTAC Euronews telekanalına istinadla xəbər verir ki, bazar günü fəlakətlə mübarizədə 2300 yanğınsöndürən iştirak edib. Güclü külək səbəbindən alov daha sürətlə yayılır. Ən böyük yanğınlar Kaştelu-Branku dairəsinin Serta şəhərində qeydə alınıb. Burada alovla mübarizəyə cəlb olunmuş 800 yanğınsöndürənə yerli sakinlər də kömək göstərirlər. Koimbra dairəsində evkalipt meşəsi yanır, bura 600 xilasedici gəlib. Portaleqri dairəsində isə meşə yanğınları iki yaşayış məntəqəsinə yaxınlaşıb.

Xatırladaq ki, bir ay əvvəl Portuqaliya tarixində ən böyük meşə yanğınlarından biri baş vermişdi. Nəticədə 30 min hektar meşə sahəsi yanmış, 64 nəfər həlak olmuş, 200-dən çox insan xəsarət almışdı. Təxminən 30 nəfər meşə yolunda öz avtomobillərində yanaraq və ya tüstüdən boğularaq həyatını itirmişdi.

# Bakı Ali Neft Məktəbinin 20 tələbəsi yay istehsalat təcrübəsini Türkiyədə keçir



Bakı Ali Neft Məktəbinin (BANM) kimya mühəndisliyi, neft-qaz mühəndisliyi və proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisası üzrə 3-cü və 4-cü kurslarda təhsil alan 20 tələbəsi "SOCAR Türkiyə" şirkətinin müəssisələrində istehsalat təcrübəsi keçir. Tələbələrdən 16-sı "Petkim"də, 2-si "Star"da, 2-si isə "SOCAR Türkiyə" şirkətində iki ay ərzində yay istehsalat təcrübəsi keçmək hüququ qazanıblar. BANM-dən AZƏRTAC-a bildirilib ki, "SOCAR Türkiyə" şirkətinin müəssisələrində təcrübə keçən tələbələr istehsalat prosesi, tikinti-quraşdırma və tamamlama işləri, hazırda fəaliyyət göstərən müxtəlif təyinatlı texnoloji qurğuların işi ilə yaxından tanış olurlar. Onlar hər bir avadanlıqda gedən texnoloji prosesləri və reqlamentləri, qurğuların nəzarət və idarəetmə sistemlərinin işini və istehsalat proseslərində sağlamlıq, təhlükəsizlik və ətraf mühitin mühafizəsi tədbirlərinin tətbiqi üsullarını öyrənirlər. Qeyd edək ki, tələbələrin tədris zamanı əldə etdikləri nəzəri biliklərin zənginləşdirilməsi məqsədilə hər il BANM-in tələbələri SOCAR-ın bütün idarə və istehsalat müəssisələrinə, Azərbaycanda fəaliyyət göstərən beynəlxalq şirkətlərə istehsalat təcrübəsinə göndərilirlər.

# Pakistanda partlayış: azı 26 nəfər ölüb, 57 nəfər yaralanıb



Bazar ertəsi günü Pakistanın Lahor şəhərində (Pəncab vilayəti) partlayış nəticəsində azı 26 nəfər ölüb, 57 nəfər xəsarət alıb. AZƏRTAC xəbər verir ki, GeoTV telekanalının yaydığı məlumata görə, partlayış meyvə-tərəvəz bazarının girişində növbə çəkən polis naryadının yaxınlığında törədilib. Yaralananlardan bəzilərinin vəziyyəti ağırdır. Polis nümayəndələri telekanala bildiriblər ki, terrorçu kamikadze tərəfindən həyata keçirilən partlayışın hədəfi hüquq mühafizə orqanlarının əməkdaşları olub. İlkin məlumata görə, hücum zamanı azı 8 polis işçisi həyatını itirib.

Yerli Express Tribune qəzetinin saytında xəbər verilir ki, hadisə baş verən yer şəhərin ən çox mühafizə olunan rayonlarından biridir - cəmi 100 metrlik məsafədə Pəncabın baş naziri Şahbaz Şərifin iqamətgahı yerləşir. Hadisə yeri polislər və Pakistan ordusunun hərbçiləri tərəfindən mühasirəyə alınıb, təhqiqat aparılır.

# Yaponiyanın hakim LDP və Komey partiyaları hökumətdə dəyişiklikləri sürətləndirmək niyyətindədirlər



Yaponiyanın hakim Liberal Demokratik Partiyası (LDP) və onun koalisiya tərəfdaşı olan Komey Partiyası Senday merinin seçkilərində məğlubiyyətdən sonra Nazirlər Kabinetinin tərkibində dəyişiklikləri tezliklə həyata keçirməyi planlaşdırırlar.

İyulun 23-də Senday şəhəri merinin seçkilərində parlamentin müxalifətin dəstəklədiyi aşağı palatasının deputatı LDP və Komey partiyalarının irəli sürdükləri namizəd üzərində qələbə qazanıb. Bu, cari ayda Tokio assambleyasına keçirilən seçkilərdə Baş nazir Şinzo Abenin rəhbərlik etdiyi LDP-nin böyük məğlubiyyətindən sonra hakim və müxalifət bloklarının qarşılaşdığı ilk seçkilər idi. Son dövrlər hökumət nümayəndələrinin iştirakı ilə baş verən bir sıra qalmaqallar onun reytinqinin kəskin düşməsi ilə müşahidə olunub.

LDP-nin seçki strategiyası ilə məşğul olan hakim partiyanın nümayəndəsi Keyzi Furuyanın rəyinə əsasən, son məğlubiyyətin əsas amillərindən biri cəmiyyətin hökumətdən narazılığıdır. Bunu son zamanlar keçirilən sosial sorğuların nəticələri də təsdiq edir. LDP və Komey partiyaları hökumətin tərkibində avqustun əvvəllərinə gözlənilən dəyişikliklər yolu ilə seçicilərin etibarını yenidən qazanmağa çalışırlar. Bununla yanaşı, cari ilin oktyabrında parlamentin aşağı palatasına əlavə seçkilər gözlənilir və bu şəraitdə hökumətin tərkibində dəyişikliklər qaçılmazdır.

# Polşa: məhkəmə islahatı təxirə salınır



Polşa Prezidenti Andjey Duda Ali Məhkəmə və Milli Məhkəmə Şurası barədə qanuna veto qoyacağını bildirib. AZƏRTAC Euronews telekanalına istinadla xəbər verir ki, Duda, həmçinin sənəd parlamentin aşağı palatasında müzakirəyə çıxarılanadək onun məzmunu ilə tanış olmadığını etiraf edib və özünün qanun layihəsi hazırlayacağını deyib. "Polşa məhkəmə sisteminin islahatına çox ehtiyac duyur və mən bunu tam dəstəkləyirəm. Lakin mən məhkəmə sisteminin normal fəaliyyətinə zəmanət verən və ədalət hissi oyadan ağıllı və müdrik islahatın tərəfdarıyam", - Andjey Duda əlavə edib.

Ötən həftə Polşa Seyminin deputatları fikir ayrılığına səbəb olan qanun layihəsini qəbul edib ki, bu da ölkənin iri şəhərlərində kütləvi etiraz aksiyalarının başlamasına səbəb olub. Bu aksiyalarda on minlərlə insan iştirak edib. Hakim "Qanun və ədalət" partiyasının təşəbbüskarı olduğu yeni qanun Ali Məhkəməni hökumətdən və parlamentdən asılı vəziyyətə salır. Bir qədər əvvəl həmin sənəd Avropa Komissiyasında da tənqid olunub. Brüssel qanun layihəsinin qüvvəyə minəcəyi təqdirdə Varşavanı ciddi nəticələrlə təhdid edib.




# "BREXİT" VƏ "FREXİT": Aİ-də siyasi təlatümlər davam edir

***Fransada prezident seçkisinin nəticələri Avropa İttifaqı miqyasında mövcud siyasi problemlərin həllində müəyyən ümidlər yaratmışdı. Siyasi dairələr və elektorat hesab edirdi ki, sağ mərkəzçi Emmanuel Makron ""qoca qitənin" xilaskarı" rolunu oynaya bilər. İndi aydın olur ki, bu rəy xeyli dərəcədə antiavropaçı təsiri bağışlayan milliyyətçi Marin Le Penin Avropa siyasi şüuru üçün qorxulu sayıla biləcək şüarlar irəli sürməsi ilə bağlı olub. Ancaq E.Makron da istisna etmir ki, "Frexit" meydana gələ bilər. Onun fikrincə, bunun olmaması üçün Aİ-də ciddi islahatlar həyata keçirilməlidir.***

Əgər bu baş verməsə, Fransa Avropa İttifaqından çıxa bilər. Ancaq seçkidən sonra E.Makronun fəaliyyəti göstərir ki, Fransanın yeni prezidenti daha çox Avropa İttifaqının möhkəmlənməsində maraqlıdır. Hətta o, bütövlükdə Qərb dəyərlərinə üstünlük verdiyini nümayiş etdirir. Ekspertlər Rusiya prezidenti Vladimir Putinlə görüşü zamanı Fransa dövlət başçısının cəsarətli davranışını və Donald Trampdan çəkinməyərək NATO sammitində avropalı siyasətçilərin qürurunu oxşayan hərəkətlər etməsini nümunə kimi göstərirlər.

## Makronun vədləri və fəaliyyəti: seçkidən sonrakı addımlar

Prezident seçkisi zamanı əksər ekspertlər Fransanın sözün həqiqi mənasında Avropa ideyasına münasibətdə bir qeyri-müəyyənlik zolağına düşdüyünü həyəcanla vurğulayırdılar. Bir cəbhədə ölkənin Aİ-ni tərk etməsində israr edənlər, digərində isə Avropasız Fransanın mövcud ola bilməyəcəyi ideyası mövcud idi. Dövlət başçısı seçkiləri reallıqda bu iki xəttin ideoloji savaş meydanını xatırlatmışdı.

İndi Avropa İttifaqının analitik və ekspert dairələri Emmanuel Makronun prezident kimi fəaliyyətini analiz edirlər. Onu daha çox perspektivli siyasi lider kimi təqdim edirlər. Bu da təsadüfi deyil. Fransanın yeni prezidenti bir sıra beynəlxalq tədbirlərdə kifayət qədər qətiyyət və iradə nümayiş etdirib. Onun daha çox müstəqil mövqe tutması diqqətləri çəkir. Belə ki, E.Makron V.Putin, D.Tramp və A.Merkel ilə münasibətlərində özünü sərbəst aparır və müstəqil mövqeyini ortaya qoyur.

Ekspertlər Makronun beynəlxalq problemləri yaxşı səviyyədə müzakirə etdiyini xüsusi vurğulayırlar. Amerika prezidenti ilə o, həm iqlim məsələsini, həm də beynəlxalq terrorla mübarizə problemini geniş müzakirə edib. Yayılan informasiyalara görə, Makron Trampı iqlim dəyişikliyi ilə bağlı Paris müqaviləsinə yenidən baxmağa razı sala bilib. Onun terrorla mübarizə məsələsində Fransanın statusunu artıran şərtlər daxilində ABŞ-ın prezidenti ilə danışıqlar aparması da analitiklərin marağına səbəb olub.

Bunlarla yanaşı, E.Makronun son zamanlar açıq surətdə Berlini liderlik ambisiyalarında ittiham etməsi başqa məqamlardan xəbər verir. Fransanın dövlət başçısı Almaniya kanslerinin Avropa İttifaqında maliyyə məsələsinə nəzarət etməyə can atmasına mənfi münasibət bildirib. Bu üsulla təşkilatı inkişaf etdirməyin mümkün olmadığını söyləyib.

Məsələnin bu tərəfi maraqlıdır və Avropanın böyük dövlətlərində bir siyasi-ideoloji böhranın mövcudluğundan xəbər verir. Belə ki, Aİ-də daxili siyasi mühitin konkret lideri yoxdur, müxtəlif cərəyanlar arasında mübarizə kəskinliklə davam edir. Bir sıra ekspertlər bu vəziyyəti keçid dövrü kimi də qiymətləndirirlər. Onlar faktiki olaraq "qoca qitə"nin ciddi siyasi transformasiyalar ərəfəsində olmasına işarə verirlər. Özü də bu tendensiya Avropa İttifaqının əsas böyük dövlətlərinin hər birində müşahidə edilir. Budur, Böyük Britaniyadan sonra Fransada da "Frexit"dən danışırlar.

Yuxarıda vurğuladıq ki, E.Makron çıxışlarının birində demişdi ki, əgər Aİ-də islahatlar olmasa, Fransa təşkilatı tərk edə bilər. Bununla bağlı o, bəyan edib: "Beləliklə, biz mütləq bu Avropada islahatlar aparmalıyıq. Bizə belə bir situasiyada xalqımızı müdafiə etmək və qloballaşmanı tənzimləmək üçün yeni Avropa İttifaqı lazımdır" (bax: Makron dopustil vozmojnostğ vıxoda Franüii iz Evrosoöza / "RİA Novosti", 1 may 2017). Belə çıxır ki, siyasətçi Avropada mövcud sosial-siyasi və mədəni vəziyyətin insanların təhlükəsizliyini təmin edə bilmək iqtidarında olmadığına əmindir. Aİ-də islahatlar aparılmalıdır ki, yeni situasiyada təhlükəsizliyi təmin etmək mümkün olsun. Bu isə əslində, təşkilatın ciddi böhran mərhələsində olmasını ifadə edir.

Bəs bu islahatlar hansı məqamları nəzərdə tutmalıdır? Fransada prezidentliyə iddialılar burada iki faktoru xüsusi vurğulayırdılar. Birincisi - milli özəlliyin qorunmasıdır. İkincisi - sosial-iqtisadi durumun yaxşılaşdırılmasıdır. Hər iki məsələ üzrə güzəşti avropalılar "xalqı satmaq" kimi qəbul edirlər. E.Makron da həmin məqamı açıq bildirib. O deyib: "Əgər mən sabah Aİ-nin indiki qaydada fəaliyyətini davam etdirsəm, onda mən öz xalqımı satmış olaram" (bax: əvvəlki mənbəyə). Bunun nəticəsi isə "Frexit" olar. Məntiq aydındır.

Avropa İttifaqının mövcud sistemi daxilində heç bir dəyişiklik müsbət nəticə verməyəcək. Artıq Avropanın aparıcı siyasi dairələri təşkilatda köklü yeniləşmələrin olmasını tələb edirlər. M.Le Pen də bu situasiyadan istifadə edərək, avrodan imtina etməyin vaxtının gəldiyini söyləyirdi. Onun fikrincə, artıq avro "ölüb". Belə isə Aİ-nin vahid valyuta ideyasını da dəfn etmək lazım gəlir.

## İnteqrasiyadan imtina: tendensiya güclənir

Müxtəlif ölkələrin öz valyutalarına keçidi isə birbaşa inteqrasiya prosesinin çox çətin vəziyyətə düşməsi anlamını verir. Görünür, elə bu səbəbdən bir sıra nüfuzlu ingilis siyasətçiləri Böyük Britaniyanın Aİ-ni tərk etməsini hələ də əngəlləməyə çalışırlar. Məsələn, bu yaxınlarda keçmiş baş nazir Toni Bler siyasətə qayıtmaq fikrində olduğunu bəyan edib. O, əsas məqsədinin Böyük Britaniyanın təşkilatı tərk etməsinə mane olmaqdan ibarət olduğunu deyib (bax: Toni Blgr obcəvil o vozvrahenii v politiku iz-za "Breksita" / Kommersant.ru, 1 may 2017). O, ümid etdiyini bildirib ki, xalqın iradəsi yekun müqavilə tərtib ediləndən sonra dəyişə bilər. Yəni həm müsbət, həm də mənfi mənada cəmiyyət yeni qərara gələ bilər. Buna görə də "Brexit"lə bağlı müqavilədə İngiltərə üçün maksimum dərəcədə ziyansız olan faktorlar nəzərə alınmalıdır.

Bunlar bir həqiqəti təsdiq edir - Avropa İttifaqının böyük dövlətlərində cəmiyyətlər təşkilatın gərəksizliyi ilə bağlı konkret rəyə gələ bilərlər. Bunun üçün ciddi sosial, siyasi, ideoloji, təhlükəsizlik və iqtisadi şərtlər meydana gəlib. Eyni zamanda, həmin tendensiyanın güclənməsində ABŞ-ın rolunun az olmadığı ehtimal edilir. Əksər mütəxəssislər isə daha çox "ikili standartlar" siyasətinin bütövlükdə Qərb siyasi mühitini böhrana apardığı qənaətindədirlər. Onlar hesab edirlər ki, bu siyasi kursdan mövcud sistem daxilində xilas olmaq mümkün deyildir. Məsələnin də ən qəliz tərəfi bundan ibarətdir.

Ekspertlər xüsusilə miqrant məsələsinə yanaşmada olan fikir ayrılığını vurğulayırlar. Siyasi liderlərin bir qismi Avropada demoqrafiyanın çox arzuolunmaz vəziyyətdə olduğunu nəzərə alaraq, miqrantların sərbəst Aİ-yə gəlməsinin daha doğru olacağını deyirlər. Maraqlıdır ki, Fransada prezidentliyə iki namizəddən heç biri bu mövqedə deyildi. Deməli, Avropanın bu böyük dövlətinin miqrantlarla bağlı siyasətində bir dəyişiklik gözlənilmir.

Digər qisim siyasətçilər isə bunun tam əksini söyləyirlər. Onlar bu məsələdə daha sərt mövqe tutaraq miqrantları güclə Avropadan çıxarmağı tələb edirlər. Belə mövqedə olanların sayı günbəgün artır. Məsələn, yaxın keçmişdə Londonda ingilislər gəlmə sayılan Böyük Britaniya vətəndaşı olan qadınları küçədə sıxışdırmışdılar. Buna cəmiyyətdən müəyyən təpkilər olsa da, müdafiə edənlər də az olmamışdı. Eyni mənzərəni indi Avstriyada, Almaniyada, yaxud Hollandiyada müşahidə etmək olar. Hollandiya və Avstriyada açıq mətnlə siyasətçilər miqrantlara qarşı radikal çağırışlar edirlər. Bunların fonunda Avropa demokratiyasının can verdiyini demək olar.

Bunlardan iki vacib nəticə hasil etmək mümkündür. Birincisi, bütövlükdə Avropa İttifaqı böhranlı vəziyyətin yeni mərhələsinə qədəm qoyur. İkincisi, Fransada artıq siyasi liderlər "Frexit"dən daha konkret kontekstlərdə danışırlar. Aİ-nin daha çətin siyasi mərhələyə keçməsi qlobal miqyasda geosiyasi dinamikaya ciddi təsir edə bilər. Bunun fonunda Rusiya və Çinin fəallaşması davam edəcək. Onlar beynəlxalq miqyasda öz sözlərini qətiyyətli və yüksək səslə demək imkanı əldə edəcəklər.

O cümlədən dünyanın inkişaf etməkdə olan böyük dövlətləri öz milli valyutalarına daha çox üstünlük verə bilərlər. Bu sırada Türkiyə ilə Hindistanın ticarətdə dollardan deyil, lirə və rupidən istifadə etməyə meyllənmələri ekspertlərin marağına səbəb olub. Bunlar böyük ölçüdə Qərbin maliyyə dominantlığına zərbə vura bilər ki, bu da özlüyündə Aİ-nin bir struktur olaraq mövcudluğuna təsir göstərər.

Yəni konkret deyilsə, "Frexit" bir sıra fransız siyasətçilərinin seçki kampaniyasının sadə elementi deyil. Bu, müasir mərhələdə Avropa siyasi mühitinin daxili məntiqindən yaranan siyasi anlayışdır. "Brexit" kimi "Frexit" də Avropanın siyasi gerçəyi ola bilər. Onun ardınca isə "EUexit" gələ bilər. Hər şey Avropa İttifaqının islahatlara nə dərəcədə açıq olacağından asılıdır. Məsələnin bu tərəfi isə hələlik qaranlıqdır. Brüssel yeniləşməyə müqavimət göstərir.

Onu daha çox Avropanın birləşmiş ordusunun yaradılması maraqlandırır. Bununla isə problem qətiyyən həll edilə bilməz. Ən yaxşı halda bu ordudan Aİ-nin hansısa böyük dövləti öz marağı üçün istifadə edəcək. Problemlər isə qalacaq. Deməli, bundan sonra da Avropada populizmin, irqçiliyin, millətçiliyin, radikal meyllərin mövcud olacağı qənaətini ala bilərik.

**Newtimes.az**

## İyulun 22-də keçirilmiş qəbul imtahanının nəticələri elan edilib

Dövlət İmtahan Mərkəzi (DİM) iyulun 22-də ali təhsil müəssisələrinə birinci və dördüncü ixtisas qrupları üzrə keçirdiyi qəbul imtahanının nəticələrini iyulun 24-də saat 17:35-dən etibarən elan edib. DİM-dən AZƏRTAC-a bildiriblər ki, imtahanda iştirak edən abituriyentlər bu qurumun internet saytına daxil olaraq imtahan nəticələri və "cavab kartı"nın qrafik təsviri ilə tanış ola bilərlər. Abituriyentlər imtahanın nəticələri haqqında məlumatı, həmçinin mobil nömrələrindən "iş nömrəsi"ni 7727 nömrəsinə göndərməklə öyrənə bilərlər. İmtahanda iştirak etmək üçün ərizə vermiş 27 min 962 abituriyentdən 1.366-sı imtahanda iştirak etməyib. On üç abituriyent imtahan qaydalarını pozduğuna görə imtahandan xaric olunub və nəticələri ləğv edilib. İmtahanda birinci ixtisas qrupu üzrə iki abituriyent (Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyinin və Xırdalan şəhər 5 nömrəli tam orta məktəbin məzunları), dördüncü ixtisas qrupu üzrə isə bir abituriyent (Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyinin məzunu) onlara təqdim olunmuş bütün test tapşırıqlarına düzgün cavab verib və maksimum nəticə - 700 bal toplayıb. İyulun 22-də Azərbaycan Kooperasiya Universitetində imtahanda iştirak edən və binadan kənarda baş vermiş yanğın hadisəsi ilə əlaqədar təxliyə olunan abituriyentlər üçün qəbul imtahanı iyulun 27-də keçiriləcək. Həmin abituriyentlər üçün "imtahana buraxılış vərəqəsi" iyulun 25-də gün ərzində DİM-in saytında yerləşdiriləcək.

## May-iyunda 469,0 min hektar sahədə yazlıq bitkilərin əkini aparılıb



Cari il may-iyun aylarında 469,0 min hektar sahədə yazlıq bitkilərin əkini aparılıb, 2016-cı ilin eyni dövrü ilə müqayisədə əkinlərin ümumi sahəsi 26,1 faiz artıb. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, bu dövrdə 33,6 min hektar (38,3 faiz çox) dənli və dənli paxlalı bitkilər (qarğıdalısız), 38,8 min hektar (4,8 faiz çox) qarğıdalı (ondan 35,8 min hektarı dən üçün), 58,8 min hektar (5,3 faiz az) kartof, 68,4 min hektar (6,4 faiz az) tərəvəz, 23,4 min hektar (10,6 faiz az) bostan bitkiləri, 136,4 min hektar (2,6 dəfə çox) pambıq, 14,1 min hektar (2,0 dəfə çox) şəkər çuğunduru, 15,0 min hektar (81,7 faiz çox) dən üçün günəbaxan, 3,3 min hektar (37,9 faiz çox) tütün, 66,5 min hektar (9,6 faiz az) çoxillik otlar, 2,3 min hektar (5,1 faiz çox) birillik otlar, 34,3 hektar (79,2 faiz az) yemlik kökümeyvəlilər və 8,4 min hektar (2,2 dəfə çox) sair bitkilər əkilib.

## Fariz Cəfərov : "Hazırda tikinti obyektlərinin sayı və orada qurulacaq kameraların texniki tələbləri müəyyənləşdirilir"

Azərbaycan Respublikasının Prezidentinin 28 aprel 2017-ci il tarixli 1349 nömrəli Fərmanına əsasən, FHN-nin Tikintidə Nəzarət Dövlət Agentliyinin, Vergilər, həmçinin Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin əmək bildirişləri sisteminə və digər aidiyyəti informasiya sistemlərinə inteqrasiya olunması nəzərdə tutulub və artıq bu istiqamətdə işlər görülür. AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərə müsahibəsində Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Əmək Münasibətlərinin Monitorinqi Mərkəzinin direktoru Fariz Cəfərov bildirib. F.Cəfərov diqqətə çatdırıb ki, hazırda tikinti obyektlərinin sayı və orada qurulacaq kameraların texniki tələbləri müəyyənləşdirilir, yaxın zamanda isə bir sıra binalarda tətbiq edilməyə başlanılacaq. Qeyd olunub ki, Fərmanla kameraların quraşdırılması tikinti işlərini aparan şirkətlər tərəfindən həyata keçirilməlidir. Onun arxasında dayanan analitik sistem və sistemlərin inteqrasiyası isə dövlət agentliyi və dolayısı ilə Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi tərəfindən aparılacaq. Kameralar tikinti işləri gedən və gələcəkdə inşaat işləri nəzərdə tutulan çoxmənzilli yaşayış binalarında qurulacaq.

# 2018-ci il iddiaları AXCP və Müsavatı yenidən kəllə-kəlləyə gətirdi

*Arif Hacılı Əli Kərimliyə qarşı qabaqlayıcı plan hazırlayıb?*

***2018-ci ildə keçirilməsi nəzərdə tutulmuş prezident seçkilərinə hələ uzun müddət qalsa da, artıq dağıdıcı müxalifət düşərgəsində yeni qarşıdurmalar nəzərə dəymək-dədir. Xüsusilə, "narazı elektorat" deyilənlərin yığışdıqları "Milli Şura" daxilində ziddiyyətlər yaşanmağa başlayıb.***

Adıçəkilən quruma rəhbərlik edən Cəmil Həsənli və Əli Kərimlinin bu dəfə də kimsəyə güzəştə getməyəcəkləri barədə fikirlərinin üzə çıxması qurumda olan bir sıra şəxsin onları düşərgədaxili ziddiyyətlər yaratmaqda suçlamaları ilə müşahidə olunur. Məsələ ondadır ki, AXCP sədri Ə.Kərimli C.Həsənli ilə belə bir razılığa gəlib ki, bu dəfə də digər müxalifət partiyalarından birgə seçkilərə qatılmaq təklifi gələrsə, həmin təkliflər rədd edilməlidir. Onları dəstəkləyənlər isə, bu qərarın doğru olmadığını, hər zaman olduğu kimi, bu dəfə də iddiaların məğlubiyyətlə nəticələnəcəyini deyirlər.

### AXCP sədri açıq-aşkar Müsavata meydan oxuyur

Başqa tərəfdən, bu vaxta qədər Müsavat başqanı Arif Hacılı AXCP



sədri Ə.Kərimli ilə yeni təmaslar qurmağa çalışsa da, ikinci birincinin dəvətlərini qəbul etməmişdir. İndi də eyni mövzu gündəmdə qalıb. Hətta AXCP sədri açıq-aşkar Müsavata meydan oxuyur, Kərimli hər vəchlə özünü müsavatçıların "lideri", seçkilərdə namizədliyini irəli sürəcək "MSDM" sədri İsa Qəmbərdən üstün olduğunu göstərməyə çalışır.

Eyni zamanda, bunun ardınca, Ə.Kərimlinin bu yaxınlarda müxalifətyönlü media qurumlarının birində yenidən sorğu keçirmək planının olması deyilir. Müxalifət düşərgəsində olan siyasi şərhçilər də bu amili - Ə.Kərimlinin bu bəyanatını həm də baş verən aksiyaların fonunda önə çıxmaq, ictimaiyyətin diqqətini cəlb etmək cəhdi kimi qiymətləndirirlər. Hesab olunur ki, AXCP təşəbbüsü ələ almaq, 2018-ci ilə qədər "narazı elektorat"ın önünə düşmək niyyəti güdür.

### Arif Hacılı sabiq başqan, "MSDM"in sədri İ.Qəmbərin 2018-ci il seçkilərində iştirakı istiqamətində anti-AXCP planı işləyib

Ancaq bu, o demək deyil ki, Kərimli nə isə əldə edə biləcək. Yəni AXCP sədrinin bu addımı gecikmiş də sayıla bilər. Çünki bu günlərdə o da bəlli olub ki, Müsavat başqanı A.Hacılı sabiq başqan, "MSDM"in sədri İ.Qəmbərin 2018-ci il seçkiıərində iştirakı istiqamətində anti-AXCP planı işləyib. Daha dəqiq desək, cəbhəçilərin müsavatçılarla bir araya gələ bilməyəcəkləri halda, bu plan işə salınacaq. Müsavatdakı etibarlı mənbədən isə, belə bir məlumat daxil olub ki, AXCP sədri o zaman düşərgədə irəli çıxa bilər ki, Müsavat başqanı onun namizədliyini dəstəkləsin. Bu isə real görünmür. O cümlədən, A.Hacılının da gizli planı çox yəqin ki, cəbhəçilərin sədrini sıradan çıxarmağa qadirdir.

*Rövşən RƏSULOV*

## Bərdə rayonunda baş vermiş hadisə ilə bağlı cinayət işi açılıb



İyulun 24-də gecə saat 3 radələrində Bərdə rayonunun Hacallı kəndində yaşayan 1972-ci il təvəllüdlü Gülbəniz Əliyevanın, övladları - 19 yaşlı Mələykənin və 14 yaşlı Muradın ağır bədən xəsarətləri ilə mərkəzi rayon xəstəxanasına gətirilməli, ananın aldığı xəsarətlərdən xəstəxanada vəfat etməsi, həyat yoldaşı - 1968-ci il təvəllüdlü Saday Əliyevin isə yaşadığı evin həyətində özünü asaraq intihar etməsi barədə daxil olmuş məlumat əsasında rayon prokurorluğunun və polis şöbəsinin əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitlərə baxış keçirilib. Maddi sübutlar götürülüb və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

Respublika Baş Prokurorluğunun və Daxili İşlər Nazirliyinin mətbuat xidmətlərinin SİA-ya daxil olan birgə məlumatında bildirilir ki, faktla bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.2.9-cu (təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan adamı qəsdən öldürmə), 29, 120.2.9-cu (təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan adamı qəsdən öldürməyə cəhd), 29,120.2.7-ci (iki və ya daha çox şəxsi qəsdən öldürməyə cəhd) və 125-ci (özünü öldürmə həddinə çatdırma) maddələri ilə cinayət işi başlanıb, iş üzrə müvafiq ekspertizalar təyin edilib. İlkin araşdırmalarla Saday Əliyevin psixi xəstəlikdən əziyyət çəkməsi, həmin tarixdə yaşadığı evdə yatmış vəziyyətdə olan arvadı və övladlarının baş nahiyələrinə iri dəmir çəkiclə vuraraq onlara qəsdən ağır bədən xəsarətləri yetirməsi və sonradan intihar etməsi müəyyən edilib. Cinayətin aləti olan çəkic tapılaraq maddi sübut kimi götürülüb. Hazırda işi üzrə zəruri istintaq hərəkətləri və əməliyyat tədbirləri davam etdirilir.

## Son 6 ayda 9,1 min nəfər əlilliyi olan şəxsə xidmətlər göstərilib



Cari ilin yanvar-iyun aylarında Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 9 098 nəfər əlilliyi olan şəxsin bərpa-müalicə və protez-ortopedik xidmətlərlə təminatı həyata keçirilib. Nazirliyin mətbuat xidmətindən "İki sahil"ə verilən məlumata görə, ƏƏSMN-nin Bakı şəhərində və respublikamızın ayrı-ayrı bölgələrində fəaliyyət göstərən bərpa-müalicə müəssisələrində kompleks tibbi, sosial və peşə reabilitasiyası tədbirlərinin aparılması yolu ilə əlilliyi olan şəxslərin sosial statusunun bərpa edilməsi və cəmiyyətə inteqrasiyası istiqamətində məqsədyönlü işlər aparılır. Bu işlərin davamı olaraq, 2017-ci ilin birinci yarımilində nazirliyin bərpa mərkəzlərində 4 311 nəfər əlilliyi olan şəxsə stasionar şəraitdə reabilitasiya xidmətləri göstərilib.

Qeyd olunan dövrdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Protez-Ortopedik Bərpa Mərkəzi, onun Gəncə şəhərindəki filialı və Naxçıvan istehsalat sahəsi tərəfindən isə 4 787 nəfər əlilliyi olan şəxsə protez-ortopedik bərpa xidmətləri göstərilib. Həmin şəxslər ümumilikdə 14 506 protez-ortopedik məmulat və reabilitasiya vasitəsi ilə təmin olunublar. O cümlədən əlilliyi olan şəxslərə 214 ədəd əlil arabası və 897 ədəd aşağı və yuxarı ətraf ortezi, 295 ədəd bel və boyun nahiyəsi üçün korset, 581 ədəd aşağı və yuxarı ətraf protezi, müxtəlif növlərdə 4 662 reabilitasiya vasitəsi, 2 283 cüt ortopedik ayaqqabı, 610 cüt dirsəkaltı ağac, 755 ədəd əsa, 259 ədəd dördayaqlı dayaq vasitəsi və s. verilib.

Son illərdə nazirliyin Respublika Əlillərin Bərpa Mərkəzində və Uşaq Bərpa Mərkəzində ən yüksək standartlara uyğun reabilitasiya şəraiti yaradılaraq müvafiq təbəqələrdən olan şəxslərin istifadəsinə verilib. Hazırda bu istiqamətdə işlər digər bir sıra reabilitasiya müəssisələrində də davam etdirilir. Bununla yanaşı, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən aparılan islahatlar çərçivəsində tibbi-sosial ekspertiza və reabilitasiya sisteminin də elektron texnologiyalar üzərində qurulması təmin edilib. Nazirliyin Mərkəzləşdirilmiş İnformasiya Sistemində yaradılan Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Alt Sistemi (TSERAS) vasitəsilə əlilliyin qiymətləndirilməsi prosesi məmur-vətəndaş təmasları olmadan, avtomatlaşdırılmış şəraitdə və şəffaf şəkildə yerinə yetirilir.

# Azərbaycan milli mədəniyyəti dünya mədəni məkanında

Azərbaycanın milli mədəniyyəti iki dövrə bölünür:

1. İslamaqədərki dövr;
2. İslamın qəbulu və yayılmasından sonrakı dövr.

İslamaqədərki dövrdə Azərbaycanda mənəvi və maddi mədəniyyət vəhdət təşkil edib dini görüşlərdə, qəbirüstü yazılarda, daş kitabələrdə, abidələrdə və dəfn mərasimlərində öz əksini tapıbdır.

Məlum olduğu kimi, mədəniyyət geniş anlayışdır. Mədəniyyətin strukturuna aşağıdakılar daxildir:

* Din;
* İncəsənət;
* Elm və texnologiya;
* Dil;
* Mədəni irs;
* Həyat tərzi;
* Elm;
* Təhsil və tərbiyə və s.

Mədəniyyəti xalqların milli mənlik siması kimi səciyyələndirən Alxan Bayramoğlu yazır: "Bəşər övladının yarandığı vaxtdan bəri mədəniyyət yaratdığı və getdikcə təkmilləşdirdiyi maddi, mənəvi, ruhani, ideoloji, bədii-estetik və digər sərvətləri özündə ehtila edir. Yəni insanlığı şərtləndirən yaddaş, dünyagörüş, elm, davranış, ünsiyyət, incəsənət, məişət və s. bu kimi keyfiyyətlər mədəniyyətin komponentlərindəndir. Mədəniyyətin inkişaf xüsusiyyətlərini, hər xalqda onun təzahür formalarını, qarşılıqlı faydalanma və təsir vasitələrinin xüsusiyyətlərini öyrənir, yeni nəslin və bəşəriyyətin mədəni və intellektual səviyyəsinin inkişafı üçün zəruridir.

Bütövlükdə, mədəniyyət şəxsiyyətin və xalqların fərdi intellektinin, yaradıcılıq potensialının göstəricisidir. Təsadüfi deyil ki, hər bir xalqın və şəxsiyyətin xarakterik xüsusiyyətlərinə, daxili dünyasının mənzərəsinə və potensial imkanlarına bələd olmaq istəyənlər birinci növbədə onun yaratmış olduğu mədəni sərvətə, əsərlərinə və abidələrinə müraciət edirlər. Çünki mədəniyyəti yaradan xalq (şəxsiyyət), eyni zamanda, bu prosesdə özü formalaşır".

Azərbaycan xalqı özünün yaratdığı milli mədəniyyətlə dünya mədəni xəzinəsinə böyük töhfələr bəxş etmişdir. Azərbaycan xalqının istedad, qabiliyyət və mədəni sərvət cəhətdən fərdi siması özünü kifayət dərəcədə qabarıq tərzdə göstərir. Yəni bir daha təsdiqlənir ki, Azərbaycan xalqının mədəni mənəvi potensiyası güclü, özü istedadlı olduğu üçündür ki, bəşər mədəniyyəti sərvətinə verdiyi töhfənin çəkisi də kifayət qədər tutumludur.

Azərbaycan mədəniyyəti milliliklər boyu ümumbəşəriliyin vəhdətindən ibarət olmuşdur. Mədəniyyətşünas S.Məmmədova, məhz bu cəhətlərə toxunaraq yazır: "Azərbaycan xalqı elə bir mədəniyyətə malikdir ki, bu mədəniyyət müxtəlif zamanlarda həm müxtəlif sivilizasiyaların nailiyyətlərindən faydalanmış, həm də onların bəzilərinin önündə getmiş elə mürəkkəb və zəngin bir fenomendir ki, ona sadə şəkildə yanaşmaq olmaz.

Azərbaycan qazandığı müstəqilliyə tamamilə yiyələnmək üçün xalqımız öz mənəvi və maddi mədəniyyətini dünya mədəniyyətinin təcrübəsi və nailiyyətlərindən faydalanmaqla, öz köklərindən ayrılmamaq şərtilə daha da inkişaf etdirməlidir".

Müasir dövrdə Azərbaycan milli mədəniyyətinin demokratikləşməsi artıq reallaşmışdır. Ənənəvi milli mədəniyyət müasirliyə qovuşmuşdur. S.Məmmədova yazır: "Milli mədəniyyətin demokratikləşdirilməsi - şəxsiyyətin özünü realizə etməsi, mədəniyyət nemətlərindən azad istifadə etməsi imkanlarının genişləndirilməsini, habelə, mədəniyyətin vətəndaş cəmiyyəti və hüquqi dövlətin siyasi dəyərlərinə cavab verən yeni dialektik differensiasiya və inteqrasiya proseslərinin tənzim edilməsini nəzərdə tutur. Azərbaycan Respublikasının demokratik mədəniyyətini liberalizm dəyərləri ilə Azərbaycan xalqının milli dəyərlərinin sintezi yolu ilə yaratmaq lazımdır. Bu prosesdə mühüm yeri yeni ümumsosial mədəni dəyərlər və normaların, demokratik mədəniyyətin əsasını təşkil edən ideallar, etika, təhsil sistemi, sosial, istehsalat, ekoloji, hüquqi və məişət normativlərinin, incəsənət və maddi təcəssümlərin formalaşdırılması tutmalıdır. Ənənəvi milli və yenilikçi dünya mədəniyyətlərinin fəal qarşılıqlı təsiri Azərbaycan cəmiyyətinin mütərəqqi inkişafına kömək edəcəkdir".

Azərbaycan milli mədəniyyətinin təşəkkülünün başqa bir təsnifatı aşağıdakılardan ibarətdir:

* Qədim Azərbaycan mədəniyyəti;
* Orta əsrlər milli mədəniyyətimiz;
* İntibah dövrünün mədəniyyəti;
* Yeni dövr mədəniyyəti;
* Sovet mədəniyyəti;
* Müstəqil Azərbaycanın mədəniyyəti.

S.Məmmədova mədəniyyətin aşağıdakı spesifik xüsusiyyətlərini səciyyələndirir: "1. Mədəniyyət formasına görə milli, məzmununa görə isə beynəlmiləl və ümumbəşəri xarakterə malikdir. Hər hansı bir mədəniyyət nümunəsi milli zəmində yaransa da, onun nəticəsi bəşəriyyətə məxsus olur.

2. Mədəniyyət humanist xarakterə malikdir. İnsan öz yaratdığından zövq alır.

3. Mədəniyyət varislik xüsusiyyətinə malikdir. Müasir nəsillər keçmiş nəsillərin təcrübəsindən faydalanaraq, onu daha da inkişaf etdirirlər.

4. Mədəniyyət vahid və bölünməzdir.

5. Mədəniyyət mentalitet vasitəsilə gerçəkləşir və s."

Müəllif qeyd edir ki, cəmiyyətin mədəni inkişaf səviyyəsi həmin cəmiyyətdə yaradılan mədəni sərvətlərin həm həcmi, həm yayılma miqyası, həm də insanlar tərəfindən mənimsənilməsi ilə əlaqələndirilir. Mənəvi sərvətlərin yaradılması, yayılması və istifadə olunması üsulları isə, cəmiyyətin sosial-mədəni təşkilindən asılıdır. Mənəvi istehsalın məzmununun dəyişməsi özünü, ilk növbədə, mənəvi sərvətlərin yaradılması, mübadilə edilməsi, bölgüsü və istifadə üsullarının dəyişməsi və inkişafında nəzərə çarpdırır. Cəmiyyətin mədəni inkişafının tempi, vüsəti və faydalılığı ona doğru istiqamətləndirilmiş insanların yaradıcı fəallığının dərəcəsindən, onların əhatə dairəsinin genişliyindən asılıdır. Elə buna görə də, mədəni tərəqqinin əsas meyarlarından biri xalqın tarixi prosesdə şüurlu iştirak dərəcəsi, onun mənəvi fəaliyyətə cəlb olunma dairəsi ilə əlaqədardır.

Milli və ümumbəşəriliyi vəhdətini özündə əks etdirən Azərbaycanın türk-müsəlman mədəniyyəti bu gün özünün yüksək inkişaf səviyyəsinə çatmışdır.

> VIII əsrdən, bütün müsəlman dünyasında olduğu kimi, Azərbaycanda da dövlət dili funksiyasını ərəb dili yerinə yetirirdi. Öz dilini xalq yaradıcılığında, bədii mədəniyyətində danışıq dilində qoruyub-saxlayan və inkişaf etdirən Azərbaycan xalqı XIX əsrdə rus dilinin təsirinə məruz qaldı, XX əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətində Azərbaycan dili dövlət dili elan edildi. Sovet dövründə ikidillilik şəraitində Azərbaycan dili Ulu Öndər Heydər Əliyevin mübarizəsi və iradəsilə Azərbaycan SSR Konstitusiyasına dövlət dili kimi daxil edildi

VIII əsrdən, bütün müsəlman dünyasında olduğu kimi, Azərbaycanda da dövlət dili funksiyasını ərəb dili yerinə yetirirdi. Öz dilini xalq yaradıcılığında, bədii mədəniyyətində danışıq dilində qoruyub-saxlayan və inkişaf etdirən Azərbaycan xalqı XIX əsrdə rus dilinin təsirinə məruz qaldı, XX əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətində Azərbaycan dili dövlət dili elan edildi. Sovet dövründə ikidillilik şəraitində Azərbaycan dili Ulu Öndər Heydər Əliyevin mübarizəsi və iradəsilə Azərbaycan SSR Konstitusiyasına dövlət dili kimi daxil edildi.

Müstəqillik illərində Ulu Öndər Heydər Əliyev Azərbaycan dilini dövlət dili kimi tətbiq etdi. Ümumiyyətlə, Azərbaycan milli mədəniyyəti özünün yüksək inkişaf mərhələsinə qədəm qoydu. Ulu Öndər Heydər Əliyevin layiqli siyasi varisi Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev milli mədəniyyətimizin çiçəklənməsi üçün ciddi tədbirlər görür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 26.04.2011-ci ildə AMEA-dakı çıxışında milli mədəniyyətimiz haqqında demişdir: "Azərbaycanın ədəbiyyatı, Azərbaycan mədəniyyəti və incəsənəti o qədər zəngindir ki, başqa tərəflərdən bizim milli sərvətimizi özününküləşdirmək üçün cəhdlər göstərirlər. Bu, yalnız ədəbiyyatla və ya Nizaminin əsərləri ilə bağlı olan məsələ deyildir. Bizim musiqimiz ermənilər tərəfindən utanmadan oğurlanır. Dahi bəstəkarımız Üzeyir bəyin əsərləri mənimsənilir. Bizim milli mətbəximiz yenə də ermənilər tərəfindən oğurlanır. Onlar bunu müxtəlif yollarla erməni mətbəxi kimi təqdim etməyə çalışırlar. Halbuki milli yeməklərimizin adları da Azərbaycan sözləridir. Əgər ermənidən soruşsan, dolma erməniсə nə deməkdir, onu deyə bilməz. Necə ki, Qarabağ deyəndə onlar üçün bu, sadəcə, bir sözdür, onu anlamırlar. Çünki bu, erməni sözü deyildir. Ona görə də, belə hərəkətlər, əlbəttə ki, bizi çox üzür. Biz öz milli-mədəni irsimizi qorumalıyıq".

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

# Kədərlənmək siqaretdən daha təhlükəlidir...



ABŞ alimlərinin tədqiqatları nəticəsində məlum olmuşdur ki, depressiyaya meyilli adamların insult keçirmək təhlükəsi böyükdür. Depressiyanın insulta səbəb olan zəif amil hesab edilməsinə baxmayaraq, o, tütündən heç də az təhlükəli deyildir. Elmi işin rəhbəri En Pen sübut edib ki, depressiya ilə əlaqədar həkimə müraciət edən pasiyentlərin insult keçirməsi riski 45 faiz, bu xəstəlikdən ölməsi riski isə 55 faiz çoxdur. Depressiya qan damarlarının tutulması və qanın beyinə çatmaması nəticəsində əmələ gələn işemik insultun yaranması ehtimalını xeyli artırır.

Psixoloqların fikrincə, depressiya zamanı stress hormonu ifraz olunur. Bu hormon orqanizmi mütəmadi məyus olmağa vadar edir. Depressiya həyatın keyfiyyətini pisliyə doğru tamamilə dəyişir. Belə adamlar tez-tez zərərli ərzaqlarla qidalanır, spirtli içkilər içir və siqaret çəkirlər. Depressiv vəziyyət xüsusilə mövsümlər arası müddətdə yaranır.

# Reyhan - min bir dərdin dərmanı



Əsasən subtropik və tropik ölkələrdə yayılan reyhanın dünyada 200-ə qədər növü var. Onların əksəriyyəti xarici görünüşcə oxşar olsalar da, ətirlərinə görə bir-birindən fərqlənirlər. Reyhanın vətəni Seylon adası, Asiyanın tropik rayonları hesab olunur. Həmin ölkələrin təbabət və mətbəxində bu bitkidən 5 min ildən çoxdur ki, istifadə olunur. Qədim zamanlarda Aralıq dənizi sahillərində yaşayan xalqlar onu "kralın ətirli bitkisi" hesab edirdilər. Reyhan sözü ərəb mənşəli olub "gözəl qoxu" deməkdir. Bitkinin latınca adı "krallara layiq ətir" mənasını verir.

Qədim Romada belə bir inanc var idi ki, insan reyhan yeyərkən yenidən can qazanır, Hindistanda isə onu müqəddəs bitki hesab edirdilər.

AZƏRTAC xəbər verir ki, hazırda reyhanın ətirli, adi, yevgenol və nanəyarpaq növlərindən daha çox istifadə olunur. Ölkəmizdə yalnız adi reyhan becərilir.

Adi reyhan ətirli və ədviyyəli xüsusiyyətə malikdir, xoş iyinə görə mixəyi və muskat tozunu xatırladır. Reyhan universal otlardan biridir, həm ayrıca istifadə olunur, həm də digər bitki və ədviyyatlarla birlikdə yeməklərin tərkibinə qatılır. Reyhan ətirli olduğuna görə termiki təsirə məruz qalmır və onu həm soyuq, həm də isti xörəklərə qatırlar. Qurudulmuş reyhan bağlı qablarda 3-6 ay, təzə reyhan isə soyuducuda bir həftəyə qədər təravətini saxlayır.

Sağlamlıq üçün reyhanın çox böyük əhəmiyyəti var. Bitkinin yarpaqlarından hazırlanan duru ekstrakt qanda protrombinin miqdarını artırır və qanın laxtalanmasını sürətləndirir. Xalq təbabətində reyhanın meyvələrindən dəmlənmiş çay soyuqdəymədən əmələ gələn sinə ağrılarında yumşaldıcı təbii vasitə kimi qəbul edilir. Reyhan yarpaqlarının çayı ürəyi qüvvətləndirmək, dəmləməsi isə mədənin fəaliyyətini və iştahı artırmaq üçün içilir. Orqanizmdə maddələr mübadiləsini yaxşılaşdırır, böyrək və sidik yollarının iltihabını aradan qaldırır, köp əleyhinə təsir göstərir. O həmçinin dərini canlandırır, aknelərə qarşı tətbiq olunur və sakitləşdirici təsir göstərir.

# Kamran Ağayev Çexiyaya yollanıb



Futbol üzrə Azərbaycan milli komandasının qapıçısı Kamran Ağayev Çexiyaya yollanıb. SİA-nın məlumatına görə, 31 yaşlı qolkiperi "Mlada Boleslav" klubunun nümayəndələri qarşılayıb. K.Ağayev hava limanından birbaşa tibbi müayinəyə yollanıb. Müayinədən uğurla keçəcəyi təqdirdə onunla "Mlada Boleslav" arasında 1 illik müqavilə bağlanılacaq. Qeyd edək ki, K.Ağayevin son klubu Portuqaliya "Boavişta"sı olub.


**səs**

Son səhifə 25 iyul


# Azərbaycan millisi Braziliya ciu-citsusu üzrə beynəlxalq turnirin qalibi olub



Azərbaycan Milli Ciu-citsu Federasiyasının Braziliya departamentinin təşkilatçılığı ilə Şağan İdman Olimpiya Kompleksində Braziliya ciu-citsusu üzrə beynəlxalq turnir keçirilib. Azərbaycan Milli Ciu-citsu Federasiyasından AZƏRTAC-a bildirilib ki, turnirdə Azərbaycan, Rusiya, Birləşmiş Ərəb Əmirliyi, Qətər, Ukrayna və Qazaxıstandan olan 200-dən çox idmançı (qızlar-oğlanlar) müxtəlif yaş kateqoriyasında gücünü sınayıb.

Yarışın açılış mərasimində Azərbaycan milli Ciu-citsu Federasiyasının vitse-prezidenti Azər Bəydullayev və "JSJ" Beynəlxalq Braziliya Ciu-citsu təşkilatının prezidenti Omar Abduraşidov iştirakçılara uğurlar arzulayıb və turnirin təşkilatında əziyyəti olan hər kəsə dərin minnətdarlığını bildiriblər.

Turnir Braziliya ciu-citsusunun "Gİ" və "No-Gİ" versiyaları üzrə keçirilib. Yarışda qazanılmış medalların sayına görə, Azərbaycan yığması birinci olub. Birləşmiş Ərəb Əmirliyi ikinci, Rusiya isə üçüncü yerdə qərarlaşıb. Yığma komandamızın heyətindən kişilər arasında görüşlərdə Elmar Həmidov, uşaqlarda isə Emil Verdiyev xüsusi texniki fəndlərin nümayişi ilə fərqləndiklərinə görə, turnirin Hakimlər Kollegiyası tərəfindən "Ən yaxşı idmançı" adına layiq görülüblər.

# Stolüstü tennisçimiz Avropa çempionu adını qazanıb



Portuqaliyanın Guimaraes şəhərində keçirilən Avropa çempionatında iştirak edən stolüstü tennisçilərimiz yarışı üç medalla başa vurublar. Azərbaycan Stolüstü Tennis Federasiyasından AZƏRTAC-a bildirilib ki, çempionatda 44 ölkədən 520 idmançı iştirak edib.

Gənc qızların şəxsi birinciliyində stolüstü tennisçimiz Ninq Cinq birinci yeri tutaraq qızıl medalın sahibi olub. Bu müstəqillik illərində idmanın stolüstü tennis növü üzrə qazanılan ən yüksək nəticədir. İdmançımızın qələbəsi şərəfinə Azərbaycan Respublikasının dövlət himni səsləndirilib. Gənc qızlardan ibarət millimiz komanda yarışlarında üçüncü yeri tutaraq bürünc, qoşa yarışlarda isə gümüş medal qazanıb.

# Gənc cüdoçularımız Çexiyada Avropa kuboku yarışında 13 medal qazanıblar



Çexiyanın paytaxtı Praqada gənclərin cüdo üzrə Avropa kuboku yarışına yekun vurulub. AZƏRTAC xəbər verir ki, mötəbər birinciliyin sonuncu günü də Azərbaycan cüdoçuları üçün uğurlu olub. Gənclərdən ibarət milli komandamız aktivinə daha 2 medal yazdırıb. Turnirdə 100 kiloqram çəki dərəcəsində yarışan cüdoçularımız - Zelim Kotsoyev və Musa Şəkərəliyev bütün rəqiblərinə qalib gələrək finala yüksəliblər. Azərbaycan duelinin qalibi Zelim Kotsoyev olub. Beləliklə, gənc cüdoçularımız Praqada 4 qızıl, 5 gümüş və 4 bürünc medal qazanıblar.

Qeyd edək ki, 27 ölkədən 308 (177 oğlan, 131 qız) idmançının qatıldığı mötəbər yarışda Azərbaycan millisi 20 cüdoçu (15 oğlan, 5 qız) ilə təmsil olunub.

# "Real"ın müdafiəçisi "Mançester Siti"də




"Real"ın futbolçusu Danilonun "Mançester Siti"yə keçidi rəsmiləşib. AZƏRTAC xəbər verir ki, braziliyalı müdafiəçi ilə 5 illik müqavilə imzalanıb. Bu keçid üçün "Mançester Siti"nin Madrid klubuna 35 milyon avro ödədiyi bildirilir. Qeyd edək ki, ötən mövsüm "Real"ın heyətində 17 oyuna çıxan Braziliya millisinin üzvü 1 qol və 2 məhsuldar ötürmə müəllifi olub.


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 5500**